RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 28 (9195) 8 FEVRAL 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Yaxşı ki, varsan, Azərbaycan!

## Prezident xarici ölkə səfirlərinin etimadnaməsini qəbul etdi

### BMT Təhlükəsizlik Şurasında islahatlara ehtiyac var



→ 2

### Azərbaycan Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünə evsahibliyi edəcək



→ 2

### Azərbaycanın təklifi beynəlxalq ədaləti əks etdirir



→ 2

### Beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək önəmlidir



→ 2

## Türkiyə dar günündə yanında yenə də ilk olaraq qardaşını gördü

Fevralın 6-da sübh tezdən qardaş Türkiyədən gələn acı xəbər Azərbaycan xalqının, dövlətinin dərin hüznünə, kədərinə səbəb olub. Qardaş ölkədə baş verən dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatının olması ölkəmizi də yasa bürüyüb.



Azərbaycanlı xilasedicilər



Xalqımız sevinci sevincimiz, kədəri kədərimiz olan qardaşlarımıza bu çətin günlərdə mənəvi dayaq olmaq üçün dəstək paylaşımları edir, duaları ilə Türkiyənin yanında olduğunu bildirir.

Eynilə 44 günlük Vətən müharibəsi zamanı türk qardaşlarımızın Azərbaycana haqq davasında mənəvi dəstək durduğu kimi.

Bəli, bir millət iki dövlət - Azərbaycan və Türkiyə dar gündə də, xoş gündə də bir-birinə həyan, kömək, arxa-dayaq olur...

### "Can Azərbaycan çətin günümüzdə yardımımıza ilk gələnlərdən oldu"

Bazar ertəsi Türkiyədə baş verən zəlzələ ilə bağlı yaşanan fəlakət zamanı da Azərbaycan dövləti qardaş ölkənin yanında olduğunu nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini bildirdi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, bu böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlətimizin başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə etdi.

→ 4

## Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım edir



Fevralın 6-da Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım göndərilir.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər çatdıracaq xüsusi təyyarə Türkiyəyə yola düşəcək.

Fondun Türkiyəyə ezam edilən əməkdaşları zəlzələ bölgəsində faciədən zərər çəkmiş vətəndaşlara humanitar yardım çatdıracaq.

Qeyd edək ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva faciə ilə əlaqədar verdiyi başsağlığında Türkiyə xalqının kədərinin bizim kədərimiz olduğunu qeyd edib, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.

Heydər Əliyev Fondu Türkiyə xalqının üzləşdiyi faciə zamanı həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyir.

## Əminə Ərdoğan Mehriban Əliyevaya təşəkkür edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan tələfatı ilə bağlı başsağlığına görə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Əminə Ərdoğan tviter hesabında paylaşım edib.

"Hörmətli Mehriban, başsağlığı mesajınıza və dərdimizi bölüşdüyünüzə görə ürəkdən təşəkkür edirəm. Can Azərbaycan çətin günümüzdə yardımımıza ilk gələnlərdən oldu. Dəstəyiniz üçün təşəkkür edirik. Dostlarımızın yanımızda olduğunu bilmək xoşdur", - deyə paylaşımda qeyd olunub.

## ƏSRİN FƏLAKƏTİ

### Türkiyə öz tarixinin ən böyük zəlzələlərindən birinin dəhşətli fəsadlarını yaşayır

Xəbər verildiyi kimi, fevralın 6-da saat 04.17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal gücündə, ardınca saat 13:24-də isə mərkəzi Elbistan rayonu olmaqla, 7,6 bal gücündə zəlzələlər baş verib.

İlk güclü zəlzələdən sonra 243-ə yaxın yeraltı təkanlar olsa da, günorta saatlarında baş verənin birinci təkanla əlaqəli olmadığı bildirilib. Məlumata görə, indiyədək ümumilikdə, 312-dən çox afterşok olub.

→ 5

# BMT Təhlükəsizlik Şurasında islahatlara ehtiyac var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Konqo Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri David Madukanın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir David Maduka etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Konqo arasında siyasi, iqtisadi-ticari münasibətlərin genişləndirilməsi üçün imkanların mövcudluğunu qeyd etdi və bu istiqamətdə əlaqələrimizin daha da fəallaşdırılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində Konqo ilə əməkdaşlıq etdiyini vurğuladı.

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatı çərçivəsində ölkəmizin sədrlik müddətinin uzadılmasına göstərdiyi dəstəyə və etimada görə Konqo tərəfinə təşəkkürünü ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində sədr dövlət kimi fəaliyyət göstərdiyini diqqətə çatdırdı, ölkəmizin yaxın vaxtlarda Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində növbəti zirvə toplantısına evsahibliyi edəcəyini bildirdi.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatı çərçivəsində BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı müzakirələrin aparılmasının vacibliyinə toxundu, Azərbaycanın Hərəkatın sədri olan dövlətin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzvü olması barədə təşəbbüslə çıxış etdiyini bildirdi. Prezident İlham Əliyev bu məsələ ilə əlaqədar Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasının önəminə toxundu. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bu il başa çatdığını xatırladaraq ölkəmizin bu məsələni institusional mexanizm kimi formalaşdırmaq niyyətində olduğunu, Hərəkata sədrlik edəcək dövlətlərin BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasının daha ədalətli yanaşma olacağını qeyd etdi.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən səfir ölkəmizin Qoşulmama Hərəkatının sədri kimi fəal iş apardığını, Konqonun Azərbaycanın bu təşkilata sədrliyini məmnuniyyətlə dəstəklədiyini bildirdi. David Maduka Azərbaycanda qeyri-rezident əsasında akkreditasiya olunmuş səfir kimi ölkəmizə tez-tez səfər edəcəyini və əlaqələrimizin, o cümlədən iqtisadi-ticari münasibətlərimizin inkişafı üçün səylə çalışacağını bildirdi. Səfir Qoşulmama Hərəkatına sədrlik edən dövlətin BMT-də aparılacaq islahatlar çərçivəsində rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması məsələsinin çox maraqlı və yaxşı təklif olduğunu qeyd etdi.

Görüşdə ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanın təklifi beynəlxalq ədaləti əks etdirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Danq Min Xoyun etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Danq Min Xoy etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Vyetnama səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladı, bu səfərin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Vyetnam arasında ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əsasda yaxşı əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev 2020-ci ildə Vətən müharibəsi zamanı beynəlxalq təşkilatlarda, xüsusilə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı müxtəlif bəyanatların qəbul edilməsi istiqamətində səylər göstərilərkən onların qəbul olunmasının qarşısının alınmasında Vyetnamın Qoşulmama Hərəkatının üzv dövləti və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Qoşulmama Hərəkatının digər üzvləri ilə birlikdə ölkəmizlə həmrəylik nümayiş etdirməsinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının vacibliyi məsələsinə də toxundu, bu xüsusda Qoşulmama Hərəkatının sədr dövlətinin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzv kimi təmsil olunmasının zəruriliyini bildirdi. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ildə başa çatacağını vurğulayan dövlətimizin başçısı dedi ki, əsas məqsəd Azərbaycandan sonra sədrliyi öz üzərinə götürəcək üzvlərə şamil olunacaq işlək mexanizmin təsbit edilməsidir. Belə bir yanaşma sırf beynəlxalq ədaləti əks etdirəcək. Dövlətimizin başçısı həmçinin gələn ay Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə görüşünün Azərbaycanda keçiriləcəyini dedi.

Azərbaycan ilə Vyetnam arasında təhsil sahəsində çox yaxşı əlaqələrin olduğunu vurğulayan Prezident İlham Əliyev hələ sovet dövründə çoxlu sayda vyetnamlı tələbənin ölkəmizdə təhsil aldığını bildirdi. Dövlətimizin başçısı Vyetnama səfəri zamanı Azərbaycandakı ali təhsil müəssisələrinin bu ölkədən olan məzunları ilə görüşdüyünü, onları Azərbaycana səfərə dəvət etdiyini xatırladı və onların bu səfəri həyata keçirdiklərini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq layihələrinin həyata keçirilməsində Vyetnam şirkətlərinin də iştirakının mümkünlüyü məsələsinə də toxundu, həmin şirkətləri bu işlərdə iştiraka dəvət etdi.

Azərbaycana səfir təyin olunmaqdan məmnunluğunu ifadə edən Danq Min Xoy Vyetnam Kommunist Partiyasının Baş katibi Nquyen Fu Tronqun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vyetnam Kommunist Partiyasının Baş katibinə çatdırmağı xahiş etdi.

Səfir Prezident İlham Əliyevin Vyetnama səfərinin ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyini bildirdi. O, Vyetnam-Azərbaycan əlaqələrinin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hələ Sovet İttifaqının rəhbərliyində olan zaman töhfələrini məmnunluqla xatırladı, Ulu Öndərin Vyetnama səfərinin münasibətlərimizin inkişafında böyük rol oynadığını qeyd etdi.

Dövlətimizin başçısı da Ulu Öndər Heydər Əliyevin Sovet İttifaqının rəhbərliyində olduğu dövrdə Vyetnama səfərini xatırladı, Ümummilli Liderin ölkələrimiz arasında münasibətlərin genişlənməsinə daim öz töhfəsini və dəstəyini verdiyini dedi. Prezident İlham Əliyev Vyetnam xalqının qəhrəmanlığına, əzminə həmişə böyük hörmətlə yanaşdığını qeyd etdi.

Diplomat Vyetnam xalqının Azərbaycan tərəfindən çoxlu sayda vyetnamlı tələbənin ölkəmizdə təhsil alması üçün şəraitin yaradılmasını yüksək qiymətləndirdiyini və Azərbaycanda təhsil almış vyetnamlı mütəxəssislərin bu gün də ölkənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərdiklərini diqqətə çatdırdı. O, hazırda Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində ayırdığı təhsil təqaüdü proqramları üzrə vyetnamlı tələbələrin Azərbaycanda təhsil aldıqlarını bildirdi. Səfir Danq Min Xoy Vyetnamın Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətini dəstəklədiyini, BMT Təhlükəsizlik Şurasında islahatlar və Qoşulmama Hərəkatının sədr dövlətinin bu strukturda təmsil olunması ilə əlaqədar Azərbaycanın təşəbbüsü barədə ölkəsinə məlumat verəcəyini diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərin artırılmasının vacibliyi vurğulandı.

# Azərbaycan Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünə evsahibliyi edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Namibiya Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Klemens Xanduukeme Kaşuupulvanın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Klemens-Xanduukeme Kaşuupulva etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, Namibiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əlaqələrin intensivləşdirilməsi üçün imkanlar mövcuddur. Azərbaycan Prezidenti qeyd etdi ki, siyasi sahədəki əlaqələrimizə uyğun olaraq iqtisadi, ticari və digər sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi imkanlarına baxılmalıdır.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilmiş Zirvə görüşündə Namibiyanın dövlət başçısının iştirakını məmnunluqla xatırlatdı. Həmçinin Qoşulmama Hərəkatının sədri kimi Azərbaycana Namibiyanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında islahatlar prosesi çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin Təhlükəsizlik Şurasında daimi üzv kimi rotasiya qaydasında təmsil olunması mexanizminin nəzərdən keçirilməsinin Azərbaycanın təşəbbüsü olduğunu vurğuladı. Bu xüsusda Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasının vacibliyini bildirdi, bu cür yanaşmanın daha ədalətli olacağını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının üzvü olaraq bu təşkilatın təsisatlanması istiqamətində işlər apardığını vurğuladı. Gələn ay Azərbaycanın Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə görüşünə evsahibliyi edəcəyini dedi. Səfir Namibiya Prezidenti Haqe Qotfrid Qeynqobun salamlarını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Namibiya dövlətinin başçısı 2019-cu ildə Zirvə görüşü zamanı Azərbaycana səfərini məmnunluqla xatırlayır.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Namibiyanın Prezidentinə çatdırmağı xahiş etdi.

Etimadnaməsini Azərbaycan Prezidentinə təqdim etməkdən məmnunluq duyduğunu deyən səfir ölkələrimiz arasında əməkdaşlığın, dostluğun və qarşılıqlı dəstəyin daha da inkişafı üçün bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Klemens Xanduukeme Kaşuupulva öz növbəsində iqtisadi-ticari əlaqələrin, mədən sənayesi və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli əlaqələrə toxunuldu, təhsil sahəsində əməkdaşlığın vacibliyi vurğulandı, Azərbaycanın Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ayırdığı təhsil təqaüdləri çərçivəsində Namibiyadan da tələbələrin Azərbaycanda təhsil aldığı qeyd edildi.

# Beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək önəmlidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Vilavan İyapohenin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu bildirdi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyinə toxundu. Prezident İlham Əliyev bu xüsusda müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin, həmçinin turizm imkanlarının və biznes strukturları arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Laos arasında həm BMT, həm də Qoşulmama Hərəkatı çərçivəsində yaxşı əlaqələrin olduğunu və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyin önəmini qeyd etdi. Prezident İlham Əliyev BMT-dəki islahatlar çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin rotasiya əsasında BMT Təhlükəsizlik Şurasında təmsil olunması ilə bağlı Azərbaycanın təklifinin əhəmiyyətini vurğuladı.

Səfir Laos Prezidenti Thonqlun Sisulitin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən səfir Bakının gözəlliyinin onu heyran etdiyini dedi. Sovet dövründə çoxlu sayda laoslu tələbənin Azərbaycanda təhsil aldığını qeyd edən Vilavan İyapohe hazırda onların Laosda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini bildirdi.

Səfir ölkələrimiz arasında iqtisadi və turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 30 illiyi ilə əlaqədar yığıncaq iştirakçılarına

Hörmətli yığıncaq iştirakçıları!

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 30 illiyi ilə əlaqədar səmimi-qəlbdən salamlayır və təbrik edirəm.

1993-cü ildə yaradılmış konfederasiya öz sıralarında çox sayda həmkarlar ittifaqı təşkilatını birləşdirərək bu gün ölkəmizdə vətəndaş cəmiyyətinin mühüm institutlarından birinə çevrilmişdir. Ötən müddət ərzində qurum həmkarlar ittifaqı hərəkatının ən yaxşı ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə çalışmış, sosial tərəfdaşlığın səmərəliliyinin artırılması üçün əməli işlər görmüşdür.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sıralarında yer alan bir milyondan çox ittifaq üzvünün əmək və sosial-iqtisadi hüquqlarının, qanuni mənafelərinin müdafiəsinin təşkilində, əmək münasibətlərinin tənzimlənməsində və ictimai sabitliyin qorunmasında əhəmiyyətli rol oynayır.

Konfederasiya 44 günlük Vətən müharibəsi zamanı, habelə bütün dünyanı bürümüş COVID-19 pandemiyası dövründə də dövlətimizin yanında olaraq ümumi işə dəstək vermişdir.

Müasir inkişafın reallıqları və bu günün çağırışları Azərbaycanda həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dəyişikliklərin aparılmasını, dünya təcrübəsindən faydalanaraq işlərinin yenidən qurulmasını labüd edir. Bu mərhələdə həmkarlar ittifaqlarının hüquqlarının ölkə qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq təmin edilməsi və məhdudlaşdırılmaması ən vacib məsələlərdən biridir.

Eyni zamanda ölkə iqtisadiyyatının sürətli inkişafı Azərbaycanın həmkarlar ittifaqlarından yeni yaradılmış iş yerlərində işçilərin əmək hüquqlarının qorunmasında və sosial problemlərinin həllində əzmkarlıq və qətiyyətli addımlar atmasını tələb edir. Dövlət orqanları və işəgötürənlər birlikləri bu sahədə konfederasiya ilə sosial tərəfdaşlığı gücləndirməli və onunla imzalanmış Baş Kollektiv Sazişin yerinə yetirilməsini təmin etməlidirlər.

Hörmətli yığıncaq iştirakçıları!

İnanıram ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası dövlət orqanları və işəgötürən birlikləri ilə birgə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması və cəmiyyətin ahəngdar inkişafı istiqamətində bundan sonra da səylər göstərəcəklər.

Sizi bir daha ürəkdən təbrik edir, fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 30 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycanda həmkarlar hərəkatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Axundova Esmira Əliəşrəf qızı
Əliyev İlqar Yusif oğlu
Əsədov Mübariz Qədir oğlu
Hüseynova Sevda Ənvər qızı
Süleymanova Gültəkin Musa qızı

**"Tərəqqi" medalı ilə**

Ağayev Kərim Nadir oğlu
Ağayev Seyfəddin Cüleyxan oğlu
Ağayeva Əfruz Məhəmmədiyyə qızı
Babayev Alim Fehruz oğlu
Boroyeva Xamisət Seyidməhəmməd qızı
Əkbərova Hökümə Qoşunalı qızı
Əliyev Əbdül Təvəkkül oğlu
Fərzəliyeva Gülnarə Bahadur qızı
Həsənli Qədir Eldar oğlu
Xəlilov Cavanşir Təhməz oğlu
İsmailov Vəkil Əli oğlu
Nəbiyeva Nəzakət Məmməd qızı
Nurullayev Nazim Akif oğlu
Paşa Tanrıverdi Əhməd oğlu
Rəhimova Adilə Məhəmməd qızı
Şabanova Samaya Cahangir qızı
Tağıyev Bəxtiyar Ələddin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

## Azərbaycanın Baş naziri ilə Türkiyənin Vitse-prezidenti arasında telefon danışığı olub



Fevralın 7-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı F.Oktaya dərin hüznlə başsağlığı verilib, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmaları arzu edilib.

F.Oktay bu çətin məqamda qardaş Azərbaycanın Türkiyə ilə həmrəyliyini yüksək qiymətləndirib, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə ölkəmiz tərəfindən davamlı şəkildə göstərilən yardıma, zəlzələ bölgəsində həyata keçirilən axtarış xilasetmə əməliyyatlarına dəstəyə görə minnətdarlığını bildirib.

## Qaz qurğuları, qazdan istifadəyə dair tələblər və təhlükəsizlik qaydaları təsdiqlənib

Qaz qurğuları, qazdan istifadəyə dair tələblər və istismar zamanı təhlükəsizlik qaydaları təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərarlar imzalayıb.

Qərarlara əsasən, "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair" və "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair" tələblər və "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası" qaydası təsdiq edilib.

Təsdiq edilmiş qərarlarda:

- qaz qurğularının tikinti-quraşdırma işlərinin tikinti obyektlərinin qaz təchizatına dair layihə sənədinin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin və qaz təsərrüfatında təhlükəsizlik qaydalarının tələblərinə uyğun həyata keçirilməsi,
- istehlakçılar tərəfindən qaz qurğularının onların texniki pasportlarında göstərilmiş qaydada təhlükəsiz istismar edilməsi və işçi vəziyyətdə saxlanılması,
- istehlakçıya satılan qazın keyfiyyət göstəricilərinin qüvvədə olan dövlət standartlarının tələblərinə uyğunlaşdırılması,
- qaz qurğularının qazın atmosferə buraxılmamasına dair tələblərin müəyyən edilməsi və bu sahədə mütəmadi nəzarətin həyata keçirilməsi,
- tikinti obyektlərinin tüstü bacalarının layihələndirilməsinin və tikintisinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin yanğın təhlükəsizliyinə dair qanunvericiliyin və qüvvədə olan qaz təchizatı üzrə layihələndirmə normalarının tələblərinə uyğun həyata keçirilməsi,
- istehlakçılar tərəfindən tüstü bacalarının təhlükəsiz qaydada istismar edilməsi və işçi vəziyyətdə saxlanılması təmin ediləcək.

## İsveçrə səfiri Ermənistanın mina təhdidləri barədə məlumatlandırılıb

Fevralın 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Muriel Peneveyreni ölkəmizdəki diplomatik fəaliyyəti müddətinin başa çatması ilə əlaqədar qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan və İsveçrə arasında müxtəlif sahələrdə əməkdaşlığı ehtiva edən ikitərəfli münasibətlər gündəliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, həmçinin cari regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Azərbaycan və İsveçrə arasında siyasi, iqtisadi, ticarət, bağlantılar, humanitar və sair sahələrdə əməkdaşlığın inkişafını qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə göstərdiyi səylərə görə səfir Muriel Peneveyreyə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa işləri, o cümlədən Azərbaycanla Ermənistan arasında sülh və normallaşma gündəliyinin irəli aparılması istiqamətində səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Ermənistanın postmünaqişə dövründə sülh gündəliyinə xələl gətirən addımları, o cümlədən Laçın yolu ətrafında Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin haqlı etirazına səbəb olan təxribatlardan bəhs edən nazir Ceyhun Bayramov bu kimi təxribatlara, habelə Ermənistanın beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablanmış əsassız iddialarına baxmayaraq, Azərbaycanın sülh prosesində qərarlı olduğunu bildirib.

Nazir eyni zamanda mina təhdidləri barədə ətraflı məlumat verib. Laçın yolu ətrafında yaranmış vəziyyətin blokada və ya humanitar vəziyyətə mənfi təsir etməsi barədə iddiaların əsassız olduğu barədə misalları diqqətə çatdırıb.

Səfir Muriel Peneveyre Azərbaycan və İsveçrə arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə münasibətlərin daha da inkişaf etdirilməsi üçün potensialın mövcud olduğunu, bu xüsusda səylərin gücləndirilməsinin əlaqələrin inkişafına töhfə verəcəyini bildirib. O, ötən il diplomatik münasibətlərin 30 illiyi tədbirlərini, ikitərəfli komissiyanın işini, yüksəksəviyyəli səfərləri məmnunluqla xatırlayıb. Bölgədə sülhün və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində normallaşma gündəliyinin, sülh sazişi üzrə danışıqların davam etməsinin vacibliyi qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Laçın yolundakı aksiya barədə məlumatlandırılıb

Fevralın 7-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə BMT Sivilizasiyalar Alyansının təşəbbüsü ilə keçirilən Beynəlxalq İnsan Qardaşlığı Gününə həsr olunmuş onlayn görüşdə iştirak edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Allahşükür Paşazadə BMT-nin "Dünyada sülh və birgə yaşamaq naminə Qardaşlıq Sənədi"nin prinsip və dəyərlərinin davamlı təşviqinə, dünyada dinlərarası dialoq və əməkdaşlıq işinə dəyərli töhfələr verən BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosa Azərbaycan Prezidentinin salamlarını çatdırıb. Bildirib ki, Papa Fransisk və Əl-Əzharın Baş imamı ət-Tayyib arasında Əbu-Dabidə imzalanmış "Qardaşlıq Sənədi" kimi dünyada insan həmrəyliyinə xidmət edən bütün ideya və təşəbbüslər, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi "Multikulturalizm", "İslam Həmrəyliyi" illəri, müəllifi olduğu mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi", habelə ölkəmizin təşəbbüsü ilə BMT səviyyəsində başladılan "Mədəniyyət naminə sülh" qlobal kampaniyası dünyada sülh və birgəyaşayış amallarına xidmət edir.

Şeyxülislam Allahşükür Paşazadə din adından siyasi məqsədlər üçün sui-istifadə olunmasından irəli gələn təhlükələrin və nifrət çağırışlarının, söz azadlığı və din pərdəsi altında radikalizm təzahürlərinin, milyonlarla insan üçün xüsusi həssaslıq kəsb edən dini hisslərin, rəmz və müqəddəsliklərin təhqiri hallarının qarşısının alınmasının zəruriliyinə diqqət çəkib. Bildirib ki, bu yaxınlarda bəzi Avropa ölkələrində, o cümlədən İsveç və Niderlandda radikal şəxslər tərəfindən "Qurani-Kərim"in yandırılması, Qüdsdə və Peşəvərdə törədilən terror aktları olduqca təhlükəli təzahürlərdir. A.Paşazadə Tehrandakı səfirliyimizə hücuma da toxunaraq bunu beynəlxalq hüquqa zidd təxribat aktı, Azərbaycan dövlətinə, xalqımıza birbaşa təhdid kimi qiymətləndirib və bütün cəmiyyətləri, siyasi, ictimai və dini liderləri buna sərt münasibət bildirməyə çağırıb.

Otuz il boyunca erməni işğalçılarının ərazilərimizi yandırmasının, məscid, kilsə, sinaqoqlarımızı məhv etməsinin, heç şübhəsiz, insan qardaşlığı prinsiplərinə təməldən zidd olduğunu bildirən Allahşükür Paşazadə buna baxmayaraq, Azərbaycanın bölgədə sülh və iqtisadi tərəqqi çağırışları ilə çıxış etdiyini diqqətə çatdırıb. Təəssüflə vurğulayıb ki, Ermənistan revanşizmə meyil göstərir və bu istiqamətdə ən böyük təbliğatçı rolunda erməni kilsəsi çıxış edir. Halbuki kilsə Uca Yaradanın buyurduğu sülh və dinc birgəyaşayış dəyərlərini təşviq etməlidir.

Laçın yolundakı aksiya ilə bağlı məsələyə toxunan QMİ sədri qeyd edib ki, yol humanitar yüklər üçün açıqdır. Şeyxülislam Allahşükür Paşazadə xüsusi qeyd edib ki, təbii sərvətlərimizin qeyri-qanuni istismar olunmasına etiraz əlaməti olaraq ekofəalların Azərbaycanın suveren ərazisi olan Laçın dəhlizində keçirdiyi dinc aksiyanın guya humanitar fəlakətə səbəb olduğu barədə feyk xəbərlər yaymaq əvəzinə, erməni dövləti və cəmiyyəti real sülh quruculuğu, dinc qonşuluq münasibətləri yaratmaq yönündə səylər göstərərək bölgədə və dünyada insan qardaşlığı məramına xidmət göstərə bilərdi.

Sonda QMİ sədri BMT Sivilizasiyalar Alyansının təşəbbüsü ilə keçirilən Beynəlxalq İnsan Qardaşlığı Gününə həsr olunmuş virtual görüşün dünya miqyasında qarşılıqlı etimad mühitinin yaradılması, insan qardaşlığının bərqərarı işinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasının Baş naziri ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Mustafa Madbuli ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycanın parlament rəhbərini səmimiyyətlə salamlayan Baş nazir ölkələrimiz arasında diplomatik əlaqələrin 1992-ci ildə yaradıldığını bildirib. O, bu illər ərzində münasibətlərin genişləndiyini qeyd edərək Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin cari ilin yanvar ayında Azərbaycana səfərinin bir sıra sahələrdə əməkdaşlığın daha da dərinləşməsinə imkan verəcəyini qeyd edib. Baş nazir deyib ki, Azərbaycanla Misir arasında siyasi dialoq yaxşı səviyyədədir. İqtisadi sahədə, o cümlədən sənaye, ticarət, nəqliyyat, kənd təsərrüfatı kimi sahələrdə geniş əməkdaşlıq üçün yaxşı imkanlar mövcuddur. O, humanitar sahədə də əlaqələrin əhəmiyyətini qeyd edib.

Baş nazir vurğulayıb ki, müxtəlif beynəlxalq təşkilatların fəal iştirakçısı olan Azərbaycanın Qoşulmama Hərəkatında böyük rolu var. O, beynəlxalq sahədə əməkdaşlığın vacibliyini xüsusi qeyd edib, ölkəsinin Azərbaycanla Ermənistan arasında sülh yaradılmasını dəstəklədiyini də diqqətə çatdırıb.

Mustafa Madbulinin sözlərinə görə, parlamentlər arasında əməkdaşlıq ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə töhfə verir. Ona görə də Misir bu sahədə münasibətlərə böyük əhəmiyyət verir. O, inamını ifadə edib ki, Milli Məclisin Sədrinin bu səfəri qanunvericilik orqanları arasında əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edərək ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluğunu bildirib. O, ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin və görüşlərin müstəsna rolunu qeyd edərək bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ildə Misirə rəsmi, Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin isə bu günlərdə ölkəmizə səfərlərinin əhəmiyyətini diqqətə çatdırıb. Onun sözlərinə görə, Bakıdakı görüşlər zamanı dövlət başçılarımız Azərbaycan-Misir əlaqələrinin gələcək inkişafı məsələsində həmrəy olduqlarını nümayiş etdirdilər.

Ölkələrimiz arasındakı müqavilə-hüquq bazasının kifayət qədər zəngin olduğunu diqqətə çatdıran spiker Sahibə Qafarova, iqtisadi, ticarət sahələrində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirib. Onun sözlərinə görə, ikitərəfli münasibətlərin ənənəvi sahələri ilə yanaşı, yeni sahələrdə də əlaqələr inkişaf etdirilə bilər.

Milli Məclisin Sədri ikitərəfli əlaqələrdə parlamentlərimiz arasında münasibətlərin vacib rolunu qeyd edərək bu sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, ikitərəfli əməkdaşlıqla yanaşı, beynəlxalq təşkilatlarda da birgə fəaliyyətin böyük əhəmiyyəti var. Millət vəkillərimiz beynəlxalq parlament təşkilatlarında birgə əməkdaşlıq edirlər. Spiker hazırkı geosiyasi şəraitdə bu əməkdaşlığın müasir çağırışların həllində faydalı rol oynadığını bildirib.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın uğurlu inkişafı, ölkəmizin beynəlxalq təşəbbüsləri, 2020-ci ildə Vətən müharibəsində əldə olunan qələbə ilə torpaqlarımızın Ermənistanın işğalından azad edilməsindən sonra dövlətimizin həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işləri barədə geniş məlumat verib. O, işğal dövründə Ermənistan tərəfindən şəhər və rayonlarımızın, infrastrukturun, tarix və mədəniyyət abidələrinin tamamilə dağıdılması və talan edilməsi, ərazilərimizin Ermənistan tərəfindən minalanması haqqında da geniş məlumat verib. Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin təşəbbüskarı məhz Azərbaycan olmasına və beynəlxalq hüququn 5 əsas prinsipi əsasında sülh sazişinin imzalanmasını təklif etməsinə baxmayaraq, Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir. O deyib ki, Ermənistan müstəqil ölkə deyil və müstəqil daxili, xarici siyasət kursuna malik deyil. Spiker vurğulayıb ki, sülh sazişinin imzalanması hər kəsdən əvvəl Ermənistanın özünə lazımdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Sahibə Qafarova Misir Senatının Sədri ilə görüşüb







Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasına rəsmi səfəri çərçivəsində fevralın 6-da bu ölkə Senatının Sədri Abdel Vahab Abdel Razeq ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə təkbətək görüş keçirilib. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılıb. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib.

Azərbaycanın parlament rəhbərini səmimiyyətlə salamlayan Senatın Sədri, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin mövcud vəziyyətindən məmnunluğunu bildirib. O, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin cari ilin yanvar ayında Azərbaycana səfərini xatırladaraq iki ölkə arasında münasibətlərin inkişafında dövlət başçılarının mühüm rolundan danışıb, bu səfərlər zamanı imzalanmış qarşılıqlı sənədlərin əhəmiyyətini qeyd edib.

Abdel Vahab Abdel Razeq həmçinin özünün ötən ilin iyun ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin birinci Bakı Konfransında iştirak etmək üçün Azərbaycana etdiyi səfərin onda doğurduğu müsbət təəssüratlardan danışıb.

O, Senatın Sədri vəzifəsinə seçildikdən sonra ilk səfərini məhz Azərbaycana etdiyini bildirib. Abdel Razeq, Misir Senatının həm Azərbaycan parlamenti ilə ikitərəfli formatda, həm də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığa böyük önəm verdiyini və bu əməkdaşlığı daha da inkişaf etdirməyə hazır olduğunu diqqətə çatdırıb. Senatın Sədri Azərbaycan Milli Məclisinin Parlament Şəbəkəsinə uğurlu töhfələrini qeyd edib və Bakıda keçirilən birinci konfransın yüksək səviyyədə təşkil olunduğunu bildirib. Həmçinin ölkələrimiz arasında münasibətlərin inkişafında Qoşulmama Hərəkatının rolu xüsusi vurğulanıb.

Abdel Razeq bildirib ki, bu gün parlamentlərimiz arasında səmərəli əməkdaşlıq qurulub və bu əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar var. O, Azərbaycan parlament sədrinin səfərini çoxdan gözlədiklərini və bu səfərin parlamentlərarası münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Misir Senatının Sədrinə minnətdarlığını bildirib. O, bu səfərin Azərbaycan Milli Məclisinin Sədri kimi onun Misirə ilk rəsmi səfəri olduğunu və səfərin əlaqələrimizin daha da dərinləşməsinə əhəmiyyətli töhfələr verəcəyinə inamını ifadə edib. Sahibə Qafarova xatırladıb ki, ötən il diplomatik əlaqələrimizin qurulmasının 30 illiyini qeyd etdik. Bu illər ərzində ölkələrimiz arasında münasibətlər genişlənib. Spiker Sahibə Qafarova ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin, keçirilən görüşlərin və imzalanan sənədlərin xüsusi rol oynadığını qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ildə Misirə, Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin isə bu günlərdə ölkəmizə səfərlərini xatırladaraq bildirib ki, bu səfərlər münasibətlərimizin daha da inkişafına böyük töhfələr vermişdir.

Qanunverici orqanların iki ölkə arasında münasibətlərin inkişafındakı rolundan danışan Milli Məclisin Sədri bu sahədə parlamentlərarası dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini vurğulayıb. Azərbaycan və Misir parlamentlərinin beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığına toxunan Sahibə Qafarova bildirib ki, ölkələrimiz beynəlxalq parlament təşkilatlarında bir-birini dəstəkləyir.

Spiker ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasından sonra regionda yaranmış yeni reallıq, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri, məcburi köçkünlərin doğma yurdlarına qayıtması prosesinə başlanması barədə məlumat verib. O qeyd edib ki, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin təşəbbüskarı məhz Azərbaycan olmasına və beynəlxalq hüququn prinsipləri əsasında sülh sazişinin imzalanmasını təklif etməsinə baxmayaraq, Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir.

Spiker bildirib ki, Azərbaycan regionda daimi sülh və təhlükəsizliyin təmin olunmasını istəyir. Azərbaycan hər bir ölkənin suverenliyinə hörmətlə yanaşır və hər kəsdən də ölkəmizin suverenliyinə hörmət göstərməsini tələb edir. Milli Məclisin Sədri Ermənistanın sülhün əldə olunmasının qarşısını almaq üçün törətdiyi təxribatlar, Azərbaycanın ərazilərinə Ermənistan tərəfindən minaların basdırılması haqqında da məlumat verib.

Spiker Sahibə Qafarova həmçinin cari il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktı haqqında məlumat verib. O bildirib ki, bu terror hücumu nəticəsində səfirliyimizin bir əməkdaşı həlak olub, iki əməkdaşı isə yaralanıb. Milli Məclisin Sədri deyib ki, biz bunu terror aktı kimi qiymətləndiririk və İrana da bu mövqeyimizi açıq ifadə etmişik. Bu hadisənin ədalətli araşdırılmasını və cinayətkarların layiqli cəza almasını tələb edirik.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

Görüş başa çatdıqdan sonra Azərbaycan Milli Məclisi ilə Misir Ərəb Respublikası Senatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova Senatın binası ilə tanış olub.

Sonda Sahibə Qafarova xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

# Yaxşı ki, varsan, Azərbaycan!

## Türkiyə dar günündə yanında yenə də ilk olaraq qardaşını gördü





*Əvvəli 1-ci səh.*

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirib. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə paylaşımında qardaş Türkiyəyə dəstəyini ifadə edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan tələfatı ilə bağlı başsağlığına görə təşəkkür edib. Bu barədə Əminə Ərdoğan tviter hesabında paylaşım edərək, "Hörmətli Mehriban, başsağlığı mesajınıza və dərdimizi bölüşdüyünüzə görə ürəkdən təşəkkür edirəm. Can Azərbaycan çətin günümüzdə yardımımıza ilk gələnlərdən oldu. Dəstəyiniz üçün təşəkkür edirik. Dostlarımızın yanımızda olduğunu bilmək xoşdur", - deyə qeyd edib.

Fevralın 6-da Türkiyənin ölkəmizdəki səfiri Cahid Bağçı tviter hesabında paylaşım edərək bildirib: "Ölkəmizdə yaşanan zəlzələ ilə əlaqədar olaraq ilk dəqiqədən etibarən həmrəyliyini göstərən və yanımızda olan qardaş Azərbaycana təşəkkür edirik".

Eyni zamanda Türkiyə mediası, ictimaiyyəti tərəfindən də Azərbaycanın Türkiyənin timsalında qardaşına çətin gündə arxa, dayaq durmasına xüsusi diqqət çəkib, ölkəmizin bu addımı təqdirlə qarşılanıb.

### Xilasedicilərimiz axtarış-xilasetmə əməliyyatlarına başlayıb

Qeyd edək ki, təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün Türkiyəyə ilk beynəlxalq yardımı Azərbaycan göndərib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülüb.















Dövlət başçısının göstərişinə əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin ilkin olaraq 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri fevralın 6-da qardaş ölkəyə yola düşüb. Həmin qüvvələrin tərkibinə FHN-in Xüsusi Riskli Xilasetmə Xidməti, Dövlət Yanğından Mühafizə Xidməti, Mülki Müdafiə Qoşunları və Bakı Regional Mərkəzinin müvafiq şəxsi heyətləri daxildir. Axtarış-xilasetmə əməliyyatları üçün zəruri vasitələrlə, o cümlədən xüsusi təlim görmüş xilasetmə itləri ilə təmin olunmuş qüvvələr qardaş ölkəyə çatdırılıb.

Artıq ötən gün səhər saatlarından FHN-nin xilasediciləri Türkiyənin zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində fəsadların aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına başlayıblar.

### Hərbi tibb personalımız da kömək üçün Türkiyədədir

Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, FHN-in yardımlarından ibarət növbəti iki təyyarə isə fevralın 7-də qardaş ölkəyə yola düşüb. Təyyarələrdən biri ilə FHN-in hər cür tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı göndərilib. Hospital 4 funksional bölmədən - qəbul-çeşidləmə, laboratoriya, cərrahiyyə və intensiv terapiya bölməsindən, 3 köməkçi konteynerdən və 3 hava ilə doldurulan moduldan ibarətdir. Mobil səhra hospitalı ən ağır yaralı və xəstələrin müayinə, əməliyyat və müalicəsi üçün müvafiq şəraitlə təmin olunub. FHN-in peşəkar tibbi heyətinin xidmət göstərəcəyi hospital bütün lazımi dərman və preparatlarla təchiz edilib.

İkinci təyyarə ilə isə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, yataq dəstləri, qızdırıcılar və digər avadanlıqlar yola salınıb.

Qeyd edək ki, 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyət qardaş ölkəyə gedib.

Ötən gün axşam saatlarında FHN-in yardımlardan ibarət növbəti təyyarəsi qardaş ölkəyə göndərilib. Bu təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, adyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner göndərilib.

Həmçinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı da ötən gün Türkiyəyə yola düşüb.

Müdafiə Nazirliyindən verilən məlumata görə, iyirmi nəfərdən ibarət heyət baş vermiş zəlzələdə xəsarət alan insanlara kömək etmək məqsədilə qardaş Türkiyədə fəaliyyət göstərəcək.

### Xalqımız zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini dərin hüznlə yad edir

Qardaş ölkədə baş vermiş təbii fəlakətlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün Türkiyədə bir həftə matəm elan edib. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib.

Azərbaycan xalqı fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini dərin hüznlə yad edir. Zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə insanlar Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzürlər.

Eyni zamanda Türkiyənin Gəncədəki Baş konsulluğunun qarşısında da zəlzələ qurbanlarının xatirəsinə guşə yaradılıb. İctimaiyyət nümayəndələri, ziyalılar, şəhər sakinləri buranı ziyarət edərək gül dəstələri düzürlər.

Bəli, Azərbaycan xalqı, dövləti xoş günündə olduğu kimi, bu dar gündə də Türkiyənin yanındadır və qardaşlarının kədərini bölüşür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanın bir qrup hərbi tibb personalı Türkiyəyə yola düşüb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı Türkiyəyə yola düşüb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iyirmi nəfərdən ibarət heyət baş vermiş zəlzələdə xəsarət alan insanlara kömək etmək məqsədilə qardaş Türkiyədə fəaliyyət göstərəcək.






## FHN-in xilasetmə qüvvələri Türkiyədə əməliyyatlara başlayıb

Məlumat verildiyi kimi, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələri qardaş ölkədədir.

FHN-in xilasediciləri qardaş ölkədə zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 11 nəfəri sağ, 20 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.





# Azərbaycandan Türkiyəyə yardım aparan daha üç təyyarə yola salınıb





Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yardımlarından ibarət növbəti üç təyyarə qardaş ölkəyə yola salınıb.

AZƏRTAC xəbər verir ki, təyyarələrdən biri ilə FHN-in hər cür tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı göndərilib. Hospital 4 funksional bölmədən - qəbul-çeşidləmə, laboratoriya, cərrahiyyə və intensiv terapiya bölməsindən, 3 köməkçi konteynerdən və 3 hava ilə doldurulan moduldan ibarətdir. Mobil səhra hospitalı ən ağır yaralı və xəstələrin müayinə, əməliyyat və müalicəsi üçün müvafiq şəraitlə təmin olunub. FHN-in peşəkar tibbi heyətinin xidmət göstərəcəyi hospital bütün lazımi dərman və preparatlarla təchiz edilib.

İkinci təyyarə ilə isə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, yataq dəstləri, qızdırıcılar və digər avadanlıqlar yola salınıb.

Qeyd edək ki, 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyət qardaş ölkəyə yola düşüb.

Üçüncü təyyarə isə Türkiyənin Adana şəhərinə yola düşüb. Təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, adyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner yola salınıb.

5434 ölü
31777 yaralı
5775 dağılmış bina

# ƏSRİN FƏLAKƏTİ

## Türkiyə öz tarixinin ən böyük zəlzələlərindən birinin dəhşətli fəsadlarını yaşayır








*Əvvəli 1-ci səh.*

Güclü zəlzələlər 10 vilayətdə - Kahramanmaraş, Qaziantep, Malatya, Diyarbakır, Kilis, Şanlıurfa, Adıyaman, Hatay, Osmaniyə və Adanada böyük miqyasda dağıntılara və insan ölümünə səbəb olub, 5 mindən çox bina dağılıb. Zəlzələlər nəticəsində 5434 nəfər həyatını itirib, 31777 nəfər xəsarət alıb, 8 mindən çox şəxs isə dağıntılar altından xilas edilib. İtkilərin ən çox baş verdiyi vilayət isə Hataydır. Hazırda dağıntılar altında qalanların xilasetmə işləri davam etdirilir.

Zəlzələ bölgəsində 53 mindən çox xilasedici çalışır.

Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib ki, zəlzələdə axtarış-xilasetmə işlərinə Türkiyə Ordusundan Komando birlikləri də daxil olmaqla, ümumilikdə, 3500 şəxsi heyət qatılıb. Onun sözlərinə görə, A400m təyyarələri daxil olmaqla, 17 təyyarə yardım uçuşları həyata keçirir, 2 "Bayraktar AKINCI" da prosesə qoşulub.

### 70 ölkədən və 14 beynəlxalq təşkilatdan Türkiyəyə dəstək

Zəlzələdən sonra Türkiyədə 4-cü dərəcəli həyəcan elan edilib. Bu isə beynəlxalq yardım zərurətini ehtiva edən siqnaldır. Dünən gün ərzində bir çox dövlət başçıları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək başsağlığı verib, yaralılara şəfa diləyib, eyni zamanda yardım təkliflərini də irəli sürüblər.

Türkiyəyə ilk dəstək göstərən ölkə isə Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığı ilə təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü. Dövlət başçısının göstərişinə əsasən, Fövqəladə Hallar Nazirliyinin ilkin olaraq 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşdü və onlar artıq işlərə başlayıb. Daha sonra dövlət başçısının tapşırığı ilə FHN-in yardımlarından ibarət növbəti iki təyyarə də Türkiyəyə göndərildi. Bundan əlavə, Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı da qardaş ölkəyə çatıb.

Türkiyə Xarici İşlər Nazirliyinin son məlumatına görə, 65 ölkədən 2769 şəxsi heyət təbii fəlakət bölgəsinə göndərilib.

Yardımla bağlı ilk açıqlama verən ölkələrdən biri də ABŞ idi. Birləşmiş Ştatlar Türkiyəyə yardım üçün 79 nəfərlik xilasetmə heyəti göndərib.

Avropa İttifaqının Ali Nümayəndəsi və Böhranlar üzrə komissarı birgə bəyanat yayaraq Aİ-nin Türkiyədəki zəlzələdən sonra fövqəladə vəziyyətdə xəritə xidməti göstərmək üçün "Kopernik" peyk sistemini aktivləşdirdiyini bildirib. Qeyd olunub ki, Aİ Mülki Müdafiə Mexanizmini aktivləşdirdikdən sonra Bolqarıstan, Xorvatiya, Çexiya, Fransa, Yunanıstan, Niderland, Polşa və Rumıniyadan 10 axtarış-xilasetmə qrupu sürətlə səfərbər edilib. İtaliya və Macarıstan da Türkiyəyə xilasetmə qruplarını təklif edib. Bundan başqa, İsrail həm xilasetmə qrupu olaraq Silahlı Qüvvələrin əsgərlərini və humanitar yardım göndərdiyini, Avstriya kansleri Karl Nehammer tviterdə paylaşım edərək Avstriya yerli yardım təşkilatları üçün Xarici Fəlakət Fondundan 3 milyon avro ayıracağını və zəlzələ bölgəsində xilasetmə əməliyyatlarında Avstriya Silahlı Qüvvələrinin 80-dən çox əsgərinin dəstək verəcəyini bildirib.

Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli də 76 axtarış-xilasetmə mütəxəssisi, dörd axtarış iti və xilasetmə avadanlığı göndərdiyini açıqlayıb. O qeyd edib ki, Böyük Britaniya həmçinin yerdəki vəziyyəti qiymətləndirmək üçün təcili tibbi yardım qrupu da göndərir və lazım olarsa, Türkiyəyə əlavə dəstək verməyə də hazırdır.

Türkiyəyə yardım məqsədilə Yunanıstanın yanğınsöndürmə xidmətinin xüsusi fəlakətlərin idarə olunması bölməsinin 21 üzvü, iki xilasedici it, bir xilasetmə maşını, 5 həkim və tibb işçisi, geoloqlar və mülki müdafiə ekspertlərindən ibarət heyəti, Gürcüstanın yanğınsöndürənlər və xilasedicilərdən ibarət 60 nəfərlik heyəti göndərilib.

Avropa İttifaqının 19 ölkəsi Türkiyəyə 27 axtarış-xilasetmə və tibbi komanda göndərib. Bu barədə Aİ-nin Böhran idarəetməsi komissarı Yanez Lenarçik paylaşım edib. O, zəlzələdən sonra Aİ-dən ümumilikdə 1150 xilasedicinin və 70 xilasetmə itinin Aİ mülki müdafiə mexanizmi vasitəsilə Türkiyəyə göndərildiyini bildirib.

Rəcəb Tayyib Ərdoğanın Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı olub. Rusiyalı xilasedicilərin köməyinin qəbul edilməsi üçün göstərişin verildiyi qeyd edilib.

Qeyd edək ki, zəlzələ baş verən bölgələrdə fövqəladə vəziyyət elan olunub, fevralın 6-dan Türkiyədə zəlzələ bölgəsindəki məktəblərdə iki, digər bölgələrdə isə bir həftəlik tətil elan edilib. Tətilin uzadılıb-uzadılmayacağı isə hələ ki, bəlli deyil. Bundan başqa, ölkədə bütün idman yarışları təxirə salınıb.

### Elm adamları nə deyir?

Son 100 ilin ən böyük fəlakəti adlandırılan zəlzələlər barədə mütəxəssislər də müxtəlif fikirlər səsləndirirlər. Qeyd olunur ki, zəlzələnin olduğu bölgə 1-ci dərəcəli riskli ərazidir. Bildirilir ki, Şərqi Anadoluda zəlzələlər güclü və dərin qatda baş verir. İki ən böyük kritik qırılma xəttinin ortasında baş verən bu zəlzələdə hər 4 sınıq çatı qırılıb. Qeyd olunur ki, zəlzələlərin başvermə ardıcıllığı izlənildiyi halda bunun təsadüfi olmadığı aydınlaşır.

Türkiyənin Elmlər Akademiyasının üzvü Naci Görür bildirib ki, baş verən iki zəlzələ bir-birinə təsir edib. Onun sözlərinə görə, qırılmalardan birində baş verən zəlzələ əlaqəli olduğu digər qırılmalara da keçir. Təsir nəticəsində isə bu qırılmalarda olan enerji daha da yüklənərək yeni bir zəlzələyə səbəb olur.

N.Görür Mərmərə dənizinin Şimali Anadolu qırılmasının şimal qolunda zəlzələ ehtimalının və cənub qolunda isə yer qatında gərginlik olduğunu vurğulayıb. Mütəxəssis bildirib ki, Balıkəsir, Çanaqqala bölgələrində, İzmir və Muğla bölgəsində zəlzələ gözləntiləri var. Ərzincan və Bingöl-Karlıova arasında isə zəlzələnin 7 baldan yuxarı olacağı gözlənilir. O qeyd edib ki, bunlar proqnozlar deyil, geoloji məlumatlara görə zəlzələ ehtimalının yüksək olduğu yerlərdir.

İtaliyalı alim isə daha fərqli fikirlərlə çıxış edib. İtaliya Milli Geofizika və Vulkanologiya İnstitutunun rəhbəri Karlo Doqlioni Kahramanmaraşda baş verən zəlzələni qiymətləndirərək qeyd edib ki, bu bölgə seysmik aktivliyin çox yüksək olduğu ərazidir. Onun sözlərinə görə, Türkiyə 150 kilometrlik qırılma xəttində bir neçə saniyədə 3 metr irəliləyib. Doqlioni fikrinə belə aydınlıq gətirib: "Bu gecə Ərəbistan qırılma xətti Anadolu qırılma xəttindən şimal-şərq və cənub-qərb oxu üzrə 3 metr irəliləmiş kimi görünür. Hərəkət qabiliyyəti 3 metrdən çox ola bilər. Bu, çox böyük hərəkətdir".

İnstitut rəhbəri ərazinin Aralıq dənizindəki ən təhlükəli bölgələrindən biri olduğunu vurğulayaraq keçən əsrlərdə burada çox şiddətli zəlzələlər olduğunu xatırladıb. Doqlioni belə zəlzələlərin yenidən baş verə biləcəyini də qeyd edib.

### Yaşamla diriniş

Türkiyədə zəlzələdən sutkalar keçməsinə baxmayaraq, dağıntılar altından hələ də sağ çıxarılan insanlar var. Onlar yaşamla mübarizə apararaq, dağıntılar altında sağ qalmağı bacarıb. Sağ qalanlar arasında yaşlılar, körpələr də yer alır.

Kahramanmaraşda bir evin dağıntıları altından 24 saat sonra 14 yaşlı oğlan sağ çıxarılıb. Daha bir möcüzə isə elə bu vilayətdə 15 aylıq körpənin sağ qalmasıdır. Dağıntılar altından gələn səslər əsasında aparılan xilasetmə işləri nəticəsində Məryəm İşıq təxminən 31 saatdan sonra sağ-salamat qurtulub və xəstəxanaya göndərilib.

Yaşamaq uğrunda mübarizə aparanlardan biri də 30 yaşlı Hülya Yılmaz olub. O, 29 saat sonra 6 aylıq körpəsi ilə birlikdə xilas edilib.

Şanslılar arasında Mehmet Çinar adlı körpə də olub. Hatayda dağıntılar altında qalan 2 aylıq uşaq sağ çıxarılıb.

Malatyada dağıntılar altında qalan 20 yaşlı oğlan isə sosial media üzərindən paylaşım edərək sağ olduğunu bildirib və kömək istəyib. Beləliklə, paylaşımı görən dostları əraziyə gələrək onun və anasının dağıntılar altından çıxarılmasına kömək ediblər.

### Zəlzələ 13.5 milyon vətəndaşa təsir edib

Türkiyənin ətraf mühit və şəhərsalma naziri Murat Kurum bildirib ki, zəlzələ 13,5 milyon Türkiyə vətəndaşına birbaşa təsir göstərib. Milyonlarla insanın evi dağılıb, onların sağlamlığına zərər dəyib. Soyuq fevral ayında çöldə gecələməli olanların da sayı az deyil.

Eyni zamanda bölgədəki xəstəxanalara da zərər dəydiyindən xəsarət alanlar gəmilərlə digər rayonlarda yerləşən tibb müəssisələrinə təxliyə olunurlar.

Hava şəraitinin şaxtalı və qarlı keçməsi də xilasetmə işləri ilə yanaşı, afterşoklar səbəbindən evində gecələyə bilməyən insanlar üçün çətinliklər yaradır. Sakinlər ərazilərdə qurulan çadırlarda qidalanır və gecələyirlər.

Hazırda həm xilasedicilər, həm də dağıntılar altında sağ qalanlar, həmçinin öz yaxınları, ailə üzvləri, qohumlarının sağ çıxacağı ümidi ilə həyəcanla gözləyənlər üçün vaxt qızıldan qiymətlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*








**Azərbaycanın dəstəyi türk mediasının gündəminə çevrilib**

# "Can qardaşdan yardım əli"




Azərbaycan və Türkiyənin dost, qardaş olduqları bu çətin günlərdə növbəti dəfə öz təsdiqini tapdı. Episentri Kahramanmaraş vilayətinin Pazarcık rayonunda olan və ölkənin digər 9 vilayətində - Qaziantep, Malatya, Diyarbəkir, Kilis, Şanlıurfa, Adıyaman, Hatay, Osmaniyə və Adanada şiddətlə hiss edilən və böyük dağıntılara səbəb olan zəlzələdə Türkiyənin köməyinə gələn ilk ölkə Azərbaycan oldu. Azərbaycanın həssas münasibəti Türkiyə ictimaiyyəti tərəfindən təqdir edilir.

Hazırda Azərbaycanın xilasetmə qüvvələri təbii fəlakət nəticəsində dağıntılar altında qalan insanları xilas etmək üçün mətin və əzmlə çalışırlar. Xilasedicilərimizin şücaəti qardaş ölkənin bir neçə yüzminlik tirajlı qəzetlərinin, baxış sayı milyona çatan internet portallarının, sosial şəbəkədəki səhifələrin əsas manşet mövzusuna çevrilib. "Yaxşı ki, varsan, qardaş" başlığı demək olar ki, əksər KİV-in manşet xəbəri olub.

"Türkiyə" qəzeti "Azərbaycandan Türkiyəyə dəstək" başlıqlı xəbəri manşetdən təqdim edib. Qeyd edilib ki, Azərbaycan bu dar gündə də qardaşının köməyinə çatan ilk ölkə oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü.

"Habertürk" qəzeti "Azərbaycandan dəstək mesajları" başlıqlı xəbərində yazıb ki, Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədi: "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da paylaşım edərək faciə zamanı həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verdi. Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Fuat Oktaya, Milli Məclisin Sədri Sahibə Qafarova baş vermiş zəlzələ nəticəsində çoxsaylı insanın həlak olması ilə bağlı Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopa başsağlığı məktubu ünvanlayıblar".

"Milliyet" qəzetinin "Azərbaycan 370 nəfərlik xilasedici göndərdi" başlıqlı xəbərində vurğulanıb ki, Can Azərbaycan tərəfindən axtarış-xilasetmə əməliyyatları üçün zəruri vasitələrlə, o cümlədən xüsusi təlim görmüş xilasetmə itləri ilə təmin olunmuş qüvvələr Türkiyəyə çatdırılıb.

"TRT Avaz" kanalı "İlham Əliyev R.T.Ərdoğana başsağlığı verdi" xəbərində qeyd edib ki, Azərbaycan Prezidenti türkiyəli həmkarına zəng edərək zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini bildirdi. Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından başsağlığını çatdırdı.

Televiziya kanallarından "TRT Haber" "Zəlzələdən sonra ilk yardım Azərbaycandan", "A Haber" "Qardaş Azərbaycan Türkiyənin çağırışına səssiz qalmadı", "Haber Global" "Azərbaycan xilasediciləri Adanadadır", "TGRT Haber" "Əliyev: Hər cür dəstəyə hazırıq" və s. başlıqlı xəbərləri tamaşaçılara çatdıraraq Azərbaycanın daim sözdə deyil, əməldə də qardaş olduğunu vurğulayıblar.

Qəzetlərdən "Güne bakış" "Yaxşı ki, varsan, qardaş" "Malatya Söz" "Azərbaycan xilasediciləri Adanadadır", "Aydınlık" qəzeti "Azərbaycanlı xilasedicilər Hatayda", "Türkiye İyi Gazete" "Azərbaycan xilasediciləri Kahramanmaraşda", "Yeni Çağ" "Azərbaycandan gələn xilasedicilər Adanada", "Karadeniz Gazete"nin "İlk beynəlxalq yardım Azərbaycandan gəldi" başlıqlı materiallarında qeyd olunub ki, Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının ən çətin günlərdə əbədi olduğunun növbəti dəfə şahidi olduq.

Xəbər agentliklərindən isə "Anadolu"nun "Azərbaycan 370 nəfərlik xilasedici göndərdi", "DHA"nın "Azərbaycandan 370 nəfərlik yardım qrupu", "İhlas"ın "Azərbaycan xilasediciləri zəlzələ bölgəsindədir", "Sondakika.com.tr"nin "Azərbaycandan 370 nəfərlik xilasedici qrupu zəlzələ zonasındadır", "Ulusal.com.tr"nin "Azərbaycandan yardım əli", "Ajans Manisa"nın "Əliyevdən Ərdoğana dəstək mesajı", "Hakimiyyet.com.tr"nin "Əliyev: Hər cür yardıma hazırıq", "Krttv.com.tr"nin "Qardaş Azərbaycandan xilasedicilər Türkiyədə" və "gzt.com"un "Zəlzələdən sonra ilk yardım Azərbaycandan" başlıqlı xəbərlərində ekspertlərin fikirlərinə geniş yer verilərək vurğulanır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir.

Bildirilir ki, bu faciə növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun sarsılmaz olduğunu sübut etdi və Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ən yaxın və səmimi dostudur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Gəncəlilər qardaş türk xalqının yanındadır

Gəncəlilər Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra qardaş ölkənin Gəncədəki Baş konsulluğunun qarşısına axın edir, həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq konsulluğun önünə gül dəstələri düzürlər.







Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop anım mərasiminə gələn bütün gəncəlilərə minnətdar olduğunu bildirmişdir: "Əsl qardaş dar gündə sınanar. Ancaq biz bunu sınaq hesab etmirik. Çünki mərhum Ulu Öndər Heydər Əliyev bizi iki dövlət, bir millət adlandırıb. Türkiyə ilə Azərbaycan qardaşlığı əbədidir. Türkiyədə baş verən zəlzələ qardaş Azərbaycan xalqını da sarsıtmışdır. Bunu bura gələn insanların üzlərindəki kədərdən də görürəm".

Anım mərasiminə gələn Ayaz Əliyev deyir ki, Türkiyədə baş verən zəlzələ onu da kədərləndirib: "Həmin gündən özümə yer tapa bilmirəm. İnsanların həlak olması və yaralanması məni olduqca sarsıdıb. Həlak olanlara rəhmət, yaralananlara şəfa diləyirəm".

Natiq Məmmədov isə ürək sözlərini belə ifadə etdi: "Mən deməyə söz tapmıram. Təbii fəlakət zamanı bu qədər insanın həlak olması qəlbimi çox ağrıdır. Uçqunlar altında qalan insanların vəziyyətini çox yaxşı başa düşürəm. Yadımdadır, 44 günlük Vətən müharibəsində ermənilərin Gəncəyə atdıqları raketin dağıtdığı ərazilərdə çoxlu sayda insan uçqunlar altında qalmışdı. Hansı çətinliklə onların uçqunlar altından çıxarılmasını gözlərimlə görmüşəm".

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və şəhərin digər icra orqanlarının nümayəndələri də anım mərasiminə qatılıblar. N.Bayramov Recep Öztopa baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, yaralananlara və xəsarət alanlara şəfa diləyib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023



Bütün həyatını Azərbaycanın inkişafına və tərəqqisinə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən biri xalqın rifahının yaxşılaşdırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi olub. Müstəqil Azərbaycan dövlətinin qurulmasını və uzunmüddətli inkişaf yoluna səfərbər olunmasını təmin edən Ulu Öndər Heydər Əliyev vətəndaş rifahının təminatını dövlətin ali məqsədlərindən biri kimi müəyyən edərək, respublikamızın sosial inkişafının, Azərbaycanın sosial dövlət modelinin əsaslarını formalaşdırıb.

## Ulu Öndər Heydər Əliyev Azərbaycanda ildən-ilə güclənən sosial siyasətin təkmil əsaslarını yaradıb

Bütün varlığı ilə Vətənə, xalqa bağlı olan, ölkəsinin bütün sahələrinin tərəqqisini, əhalinin rifahının yüksək təminatını fəaliyyətinin başlıca amalına çevirmiş dünyaşöhrətli dahi şəxsiyyət, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bu məqsəd naminə misilsiz tarixi xidmətlər göstərib. Hələ ötən əsrin 70-80-ci illərində Ulu Öndər Azərbaycanın ozamankı ittifaq məkanında geridə qalan aqrar respublikalar sırasından qabaqcıl respublikalar sırasına çıxmasını təmin edib. Həmin dövrdə respublikamızda xalq təsərrüfatının bütün sahələrində dinamik inkişafa, elmi-texniki və mədəni sahələrin tərəqqisində böyük sıçrayışa, tikinti-quruculuq işlərinin geniş miqyas almasına, böyük sayda işçi tutumuna malik yüzlərlə müəssisənin yaradılmasına, məşğulluq imkanlarının xeyli genişləndirilməsinə və əhali gəlirlərinin ildən-ilə artmasına nail olunub. Orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi dəfələrlə genişləndirilib, yeni ali təhsil müəssisələri açılıb, hər il respublikamızdan xeyli sayda gənc keçmiş ittifaqın aparıcı elm-təhsil ocaqlarına göndərilib və bu proseslər ölkədə iqtisadi inkişafa uyğun olaraq müxtəlif sahələrdə mütəxəssislər ordusunun yetişməsinə imkan verib.

Ulu Öndər Heydər Əliyevin ən mühüm xidmətlərindən biri kimi, Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb ki, bu da ölkəmizin peşəkar hərbi kadr potensialının, milli zabit heyətinin formalaşmasına şərait yaradıb. Gələcək müstəqil Azərbaycanın Milli Ordusunun qurulması, hərbi qüdrətə malik olmasında müstəsna rola malik həmin hərbi liseyin yetirmələri olan zabitlərimiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 2020-ci ildə möhtəşəm zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsində böyük şücaətlər göstərərək şanlı qəhrəmanlıq tarixi yazdılar.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr ölkədə bütün sahələrdə ağır vəziyyətə, kəskin böhrana səbəb olmaqla, gündən-günə dərinləşən siyasi, sosial-iqtisadi tənəzzül ölkəmizi dövlətçiliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Azərbaycanın taleyinin həll olunduğu olduqca ağır bir zamanda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən rəhbərliyə qayıdışı respublikamızın müqəddəratını tənəzzüldən tərəqqiyə doğru dəyişdi. Bu tarixi Qayıdış Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, vətəndaş qarşıdurmasından, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas etdi. Respublikanı bürüyən xaos və anarxiya, mənəvi-psixoloji gərginlik aradan qalxdı, ictimai-siyasi sabitliyin möhkəm əsasları formalaşdı.

Müasir müstəqil Azərbaycan dövlətinin qurulmasını və uzunmüddətli inkişaf yoluna çıxmasını, milli iqtisadiyyatın sağlam əsaslar üzərində dirçəlməsini və tərəqqisini təmin edən Ulu Öndər Heydər Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində elə həmin vaxtlarda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər görüldü.

1993-2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün Ulu Öndər Heydər Əliyev tərəfindən 60-dan artıq sənəd imzalanıb. Bu sənədlər ölkədə sosial müdafiənin gücləndirilməsində, həssas əhali qruplarına dövlət qayğısının artırılmasında mühüm irəliləyişləri, sosial müdafiə tədbirlərinin, sosial ödənişlərin əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsini təmin edib. Ümumilikdə 1995-2003-cü illər ərzində respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləğində 8 dəfə, orta aylıq əməkhaqqında 6 dəfədən çox artım baş verib.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilən, demokratik dəyərləri özündə birləşdirən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında da Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilib. Bu Əsas Qanunda Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı bəyan edilib. Eyni zamanda Ulu Öndərin tapşırıqları əsasında əmək, məşğulluq, sosial müdafiə sahəsində milli qanunvericilik bazasının yaradılması və ildən-ilə təkmilləşdirilməsi işləri aparılıb. MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi şəraitə uyğun Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, əlilliyin qarsısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramı, ölkənin Demoqrafik İnkişaf Konsepsiyası qəbul edilib. Eləcə də əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən əmək müfəttişliyi sistemi qurulub, Pensiya İslahatı Konsepsiyası ilə mütərəqqi dünya təcrübəsinə uyğun sığorta-pensiya sisteminin yaradılmasının əsası qoyulub. 20 fevral 2003-cü ildə qəbul edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" ölkədə yoxsulluqla mübarizədə əhəmiyyətli nəticələrə nail olunmasına imkan verib.

"Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir" deyə bəyan edən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə hələ ötən əsrin 90-cı illərində mühüm sosial müdafiə proqramlarına - şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzillə, müharibə ilə əlaqədar əlilliyi olanların avtomobillə təminatı proqramlarının icrasına başlanıb. Bu tədbirlərin bir qismində şəxsən iştirak edən Ulu Öndər Vətənin müdafiəsində olmuş insanların, şəhid ailələrinin daim dövlətin qayğısı altında olacaqlarını bəyan edib. Həmçinin Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə çoxsaylı yeni sosial obyektlər açılıb, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası üçün reabilitasiya infrastrukturu təkmilləşdirilib və onun şəbəkəsinin genişləndirilməsi işləri aparılıb, əlilliyi olan şəxslərin qabiliyyət və istedadlarının dəstəklənməsi və cəmiyyətə tanıdılması məqsədilə ümumrespublika tədbirlərinin təşkilinə başlanılıb.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan öz tarixində sürətli tərəqqi yoluna çıxaraq, mühüm nailiyyət və qələbələrə imza atıb, eyni zamanda sosial inkişaf istiqamətində böyük irəliləyişlər əldə edib. Dövlət başçısının sosial sahəyə xüsusi qayğısı nəticəsində ölkəmizdə ardıcıl sosial islahatlar aparılmaqla sosial müdafiə və aktiv məşğulluq proqramlarının xeyli genişlənməsi, müasir və etibarlı, dayanıqlı sosial müdafiə sisteminin qurulması, sosial ödənişlərdə davamlı artımlar təmin edilib.

"Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik" deyə bəyan edən Prezident İlham Əliyevin fərman və sərəncamları ilə xüsusilə son 5 ildə ardıcıl və geniş miqyas alan inqilabi sosial islahatlar ölkəmizdə vətəndaş rifahının təminatı istiqamətində ciddi irəliləyişlər əldə olunmasına imkan verib.

Xüsusilə də son illərdə dünyada baş verən bahalaşma, qiymət artımlarının qlobal iqtisadiyyata fəal şəkildə qoşulmuş Azərbaycana da təsirsiz ötüşmədiyi vaxtda aparılan ardıcıl sosial islahatlar, sosial ödənişlərdə tətbiq edilən davamlı artımlar dövlətin daim öz vətəndaşının yanında olaraq ona dəstək olduğunu bir daha təsdiq edir. Dövlət başçımızın bu günlərdə yerli telekanallara müsahibəsində bəyan etdiyi kimi, "Biz çalışırıq ki, dünya üçün bu böhranlı vəziyyəti xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirək".

Cənab Prezidentin imzaladığı fərman və sərəncamlarla 2023-cü ilin əvvəlindən həyata keçirilən yeni sosial islahat paketi çərçivəsində də ölkəmizdə sosial ödənişlərin növbəti dəfə artırılması təmin edilib: minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların aylıq vəzifə maaşları orta hesabla 15 faiz artırılıb, əhalinin həssas qruplarına - şəhid ailələrinə, əlilliyi olan şəxslərə, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olanlara, ailə başçısını itirənlərə, aztəminatlı ailələrə, beşdən çox uşağı olan qadınlara və başqalarına yönələn müavinət və təqaüdlərdə növbəti artımlar edilib.

Ümumilikdə, son beş ildə icra olunan 4 sosial islahat paketindən əvvəlki 3 islahat paketi 4 milyon insanı əhatə edərək, həmin islahatlar üçün əlavə olaraq illik 6 milyard manat ayrılmışdı, 2023-cü ilin əvvəlindən reallaşdırılan yeni, dördüncü sosial islahat paketi isə 1,9 milyon insanı əhatə edir, onlara yönələn əməkhaqlarının, müavinət və təqaüdlərin artırılması üçün də əlavə olaraq illik 750 milyon manat ayrılıb.

Son beş ilin sosial islahatlarının nəticələrinə nəzər saldıqda, həmin dövrdə minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 52 faiz, median əməkhaqqında iki dəfəyə yaxın, əməkhaqqı fondunda 2,5 dəfə, minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 80 faiz artım olduğunu görürük. Sosial müavinət və təqaüdlər üzrə ödənilən illik vəsait isə son beş ildə 5 dəfə artaraq 1,5 milyard manatı ötüb.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan mühüm sosial müdafiə proqramlarından biri - şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı isə uğurla davam etdirilərək xeyli genişlənib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi zəfər qazandığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində həmin proqramın da 5 dəfə genişlənməsinə nail olunub, onlara postmüharibə dövründə 4500 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib. Prezident İlham Əliyevin bu günlərdə yerli telekanallara müsahibəsində bildirdiyi kimi, "Keçən il bu istiqamətdə də önəmli addımlar atılıb, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi. 2021-ci ildə isə 3 min mənzil verildi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək. Bu günə qədər 13 min ailə mənzillə təmin olunub".

Ötən dövrdə müharibə ilə əlaqədar əlilliyi olan 7500-dən çox şəxs minik avtomobili ilə təmin olunub. Ümumilikdə, postmüharibə dövründə icra olunan sosial dəstək paketi 122 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 264 min xidmət göstərilib. O cümlədən 102 min şəxsə 114 min aylıq sosial ödəniş, 16,8 min şəxs üzrə birdəfəlik ödəmə, 3,1 min şəxsə sığorta ödənişi təyin olunub, 11 min nəfərə 36,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 1,8 min şəxs 30,7 min reabilitasiya vasitəsi, 379 nəfər 394 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, 16,5 min şəxsin isə məşğulluğu təmin olunub, o cümlədən 9,5 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzləri yaradılaraq bu mərkəzlərdə şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 71,7 min şəxsə xidmətlər göstərilib.

Azərbaycanda son illər aparılmış sosial islahatların mühüm innovativ uğurlarından biri də DOST konsepsiyasıdır. Prezident İlham Əliyevin fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 6 DOST mərkəzi açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahələr üzrə 154 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir. Ötən il DOST mərkəzlərində 618 min, ümumilikdə, ötən dövrdə isə 1,3 milyon şəxsə xidmət göstərilib və vətəndaşların DOST xidmətlərindən məmnunluq səviyyəsi 98 faiz üzərindədir. Hazırda Naxçıvan, Bərdə, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallı, Şuşada da DOST mərkəzlərinin açılması üçün işlər aparılır. İşğaldan azad edilmiş bölgələrimizin DOST xidmətləri ilə əhatə olunması istiqamətində ilk addım kimi 2022-ci ilin may ayında Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib. Cənab Prezidentin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planına əsasən, 2023-2026-cı illərdə Cəbrayılda Regional DOST mərkəzi və Peşə Hazırlığı Mərkəzi, həmçinin Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşada DOST filialları, Kəlbəcərdə Reabilitasiya Mərkəzi yaradılacaq. Eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı aktiv məşğulluq proqramları icra olunacaq.

Son illər ölkəmizdə müasir reabilitasiya və sosial xidmət infrastrukturu da qurulub, reabilitasiya xidmətləri ilə təmin olunanların illik sayı dəfələrlə artıb. Dövlət sosial xidmətləri sahəsində e-texnologiyaların geniş tətbiqi sahəsində də son illər mühüm nailiyyətlər əldə edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 153 xidmətindən 140-dan çoxu artıq elektronlaşdırılıb və hazırda nazirlik üzrə elektronlaşma səviyyəsi 90 faizdən yüksəkdir. Bu e-xidmətlərə ötən il də 21 milyona yaxın müraciət olub. 2019-cu ilin əvvəlindən sosial ödənişlərin elektron sistem üzərindən proaktiv təyinatına başlanıb və ötən 4 ildə 500 min pensiya, müavinət, təqaüd təyinatı e-sistem üzərindən, proaktiv qaydada aparılıb. Son bir ildə əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 533 min e-arayış verilib, daha 212 min fərdi şəxsi hesab e-qaydada açılıb. Nazirliyin e-sistemlərinin 50-dən çox qurumun informasiya bazaları ilə inteqrasiyası mövcuddur ki, həmin qurumların 2022-ci ildə nazirliyin informasiya bazalarına sorğu sayı 209 milyon olub.

Qeyd edək ki, son illərin sosial islahatları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Bunun əyani təzahürləri kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qurumları 2022-ci ildə 13 beynəlxalq mükafata sahib olub, son iki ildə isə "Keyfiyyətli idarəetmə sistemi", "Korrupsiyaya qarşı idarəetmə sistemi", "Müştəri məmnunluğu və şikayətlərin idarə edilməsi sistemləri" üzrə 12 İSO sertifikatı əldə ediblər.

**Beləliklə, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə, sosial sahəyə xüsusi diqqət və qayğı ilə davam etdirilən uğurlu sosial inkişaf strategiyası ölkəmizdə əmək, məşğulluq, sosial müdafiə sahələrində daim irəliləyişləri, əhalinin rifah halının səviyyəsinin yüksəldilməsi, sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi, dövlət sosial xidmətlərinin müasir və təkmil, çevik və şəffaf, vətəndaş məmnunluğuna uyğun qurulması istiqamətində yeni-yeni uğurlar əldə olunmasına imkan verib və qarşıdakı dövrdə də sosial inkişafın davam edəcəyinə təminat yaradıb.**

*Anar ƏLİYEV,*
*əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini*

## "Heydər Əliyev və müasir Şərq" mövzusunda beynəlxalq konfrans keçiriləcək




AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu və İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir Şərq" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

Bu barədə AZƏRTAC-a Şərqşünaslıq İnstitutundan məlumat verilib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən konfrans mayın 3-4-də keçiriləcək.

Beynəlxalq konfransda iştirak etmək istəyənlər tezisləri Azərbaycan, türk, ingilis, rus və ərəb dillərində aprelin 5-dək h.aliyev100@mail.ru ünvanına göndərə bilərlər. Qəbul olunan tezislər aprelin 12-də elan ediləcək.

## Tərtərdə inşa müsabiqəsi - "Ulu Öndərin irsi milli sərvətimizdir"



Tərtər Rayon İcra Hakimiyyətinin və rayon təhsil sektorunun təşkilatçılığı ilə Uşaq, Gənclər, Şahmat İdman Məktəbində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir" mövzusunda inşa müsabiqəsi keçirilib.

"Heydər Əliyev İli" ilə əlaqədar silsilə tədbirlər çərçivəsində keçirilən müsabiqədə rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub. Təhsil sektorunun müdiri Oktay Sarıkişiyev və rayon icra hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Zabil Paşayev çıxış edərək, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, gənclərə və təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb, müsabiqə iştirakçılarına uğurlar arzulayıblar.

Sonra məktəblilər 90 dəqiqə ərzində düşüncələrini kağız üzərinə köçürüblər. İnşa yazı müsabiqəsinin qalibləri yaxın günlərdə elan ediləcək.



# Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715; 2022, № 6, maddə 591, № 7, maddə 703) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 9-1-ci və 9-2-ci maddələr əlavə edilsin:

**"Maddə 9-1. İnzibati məhkəmə icraatının elektron qaydada aparılması**

9-1.1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə iddiaçının (ərizəçinin) seçimi əsasında inzibati məhkəmə icraatı elektron qaydada, bu Məcəllə ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparıla bilər.

9-1.2. Məhkəmə və proses iştirakçıları tərəfindən məhkəmə aktlarının, ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə müəyyən etdiyi "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

9-1.3. İnzibati məhkəmə icraatı elektron qaydada aparıldıqda həmin icraat, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.

9-1.4. Bu Məcəllənin 9-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada təqdim edilmiş məhkəmə aktlarının və digər sənədlərin başqa qaydada verilməsi tələb oluna bilməz.

9-1.5. Bu Məcəllənin 9-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatı zamanı proses iştirakçıları yazılı sübutları yalnız "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə təqdim edirlər. Bununla belə bu qaydada təqdim olunmuş yazılı sübutun həqiqiliyi şübhə doğurarsa, məhkəmə həmin yazılı sübutun əslinin və ya lazımi qaydada təsdiq olunmuş surətinin təqdim olunmasını tələb edə bilər.

9-1.6. Məhkəmə iclasının real vaxt rejimində müşahidə edilməsi imkanı iclasda iştirak edə bilməyən tərəfin ərizəsinə əsasən və buna texniki imkanlar yol verdiyi halda məhkəmənin qərarı ilə təşkil oluna bilər.

9-1.7. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

9-1.8. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş iş materialları kağız daşıyıcıda olan materiallara bərabər tutulur və onlarla eyni hüquqi qüvvəyə malikdir.

9-1.9. İnzibati məhkəmə icraatı elektron qaydada aparıldıqda proses iştirakçılarının adlarının, onların poçt ünvanlarının, istifadələrində olan elektron poçt ünvanlarının, mobil telefon nömrələrinin "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilməsi işə baxan məhkəmə tərəfindən təmin edilir.

**Maddə 9-2. İnzibati məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi**

9-2.1. Məhkəmə aşağıdakı hallarda inzibati məhkəmə icraatının iştirakçısının, onun nümayəndəsinin (qanuni nümayəndəsinin), vəkilin, şahidin, ekspertin, mütəxəssisin, tərcüməçinin məhkəmənin iclas zalında bilavasitə iştirakı olmadan məhkəmə icraatını videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirə bilər:

9-2.1.1. inzibati məhkəmə icraatının iştirakçıları, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi ölkədən kənarda və ya ölkə daxilində başqa şəhərdə (rayonda) olmaqla, üzrlü səbəbdən həmin şəxslərin məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

9-2.1.2. inzibati məhkəmə icraatının iştirakçıları, onların qanuni nümayəndələri və şahidlərin müalicə müəssisəsində olması səbəbindən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

9-2.1.3. inzibati məhkəmə icraatının iştirakçıları, onların qanuni nümayəndələri və şahidlərin azadlıqdan məhrumetmə və ya həbs yerlərində saxlanılması səbəbindən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

9-2.1.4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə, hərbi vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Məcəllənin 9-2.1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə;

9-2.1.5. məhkəmə icraatının lüzumsuz uzadılmasının qarşısının alınması məqsədilə digər hallarda.

9-2.2. Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi üçün məhkəmə öz təşəbbüsü ilə, yaxud tərəflərin əsaslandırılmış vəsatəti əsasında müvafiq qərardad qəbul edir.

9-2.3. Məhkəmə icraatı videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini, real vaxt rejimində məhkəmə iclas zalına ötürülməsini, icraatın aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

9-2.4. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən məhkəmə iclaslarının və prosessual hərəkətlərin videoyazısı aparılmalı, videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda işə əlavə edilməlidir.

9-2.5. Bu Məcəllənin 17.3-cü maddəsində nəzərdə tutulmuş hallarda videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılmasına yol verilmir.".

2. 45.2-ci maddəyə "surətləri" sözündən sonra "(iddia ərizəsi və digər sənədlər elektron formada verildiyi hal istisna olmaqla)" sözləri əlavə edilsin.

3. 62.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"62.1. Məhkəmə proses iştirakçılarını işə şifahi və ya yazılı icraat qaydasında baxılması, şifahi məhkəmə baxışı ilə bağlı iclasın vaxtı və yeri, prosessual hüquq və vəzifələri, habelə ayrı-ayrı prosessual hərəkətlər haqqında xəbərdar etməyə borcludur.".

4. 63.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"63.2. Məhkəmə iclası açıq elan olunduqdan və proses iştirakçılarının tərkibi müəyyən edildikdən sonra, sədrlik edən proses iştirakçılarına prosessual hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Həmin bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş hər bir proses iştirakçısına yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Məhkəmə iclasına gəlmiş proses iştirakçılarının müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir. Bundan sonra sədrlik edən və ya məruzəçi hakim mübahisənin mahiyyətini ümumi şəkildə izah (şərh) edir.".

5. 65-ci maddənin mətni 65.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 65.2-ci maddə əlavə edilsin:

"65.2. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən proses iştirakçılarını bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. Proses iştirakçıları məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.".

6. Aşağıdakı məzmunda 68.2-1-ci maddə əlavə edilsin:

"68.2-1. Bu Məcəllənin 9-1.3-cü maddəsində nəzərdə tutulmuş məhkəmə icraatında işə baxan məhkəmə öz qərarını yalnız elektron məhkəmə icraatı materiallarına əlavə edilmiş sübutlar və məhkəmə icraatında tədqiq olunmuş faktlar və sübutlarla əsaslandırır.".

7. 75-ci maddə üzrə:

7.1. 75.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Şifahi məhkəmə baxışının qurtardığı gün inzibati mübahisələrə dair iş üzrə qərarı qəbul etdikdən sonra hakim məhkəmə iclası zalına qayıdır (tərəflərin məhkəmə iclasına gəlmədiyi hallar istisna olmaqla), qərarın giriş və nəticəvi hissələrini elan edir, qərardan şikayət etmə qaydası və müddətini, habelə tərəflərin müraciəti olduğu halda qərarın nəticəvi hissəsini izah edir.";

7.2. aşağıdakı məzmunda 75.1-1-ci və 75.3-1-ci maddələr əlavə edilsin:

"75.1-1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qərarın elan edilmiş nəticəvi hissəsi barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.";

"75.3-1. Proses iştirakçılarının tələbi ilə qərarın giriş və nəticəvi hissələrini əks etdirən çıxarış elan olduğu gün həmin şəxslərə rəsmi qaydada verilir.";

7.3. 75.3-cü maddədə "20.1-ci" sözü "20-ci" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 9-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

2. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 790; 2018, № 5, maddə 908; 2019, № 5, maddə 831; 2022, № 6, maddə 612) 2.2-ci bəndinə "Məcəllənin" sözündən sonra "9-1.2-ci maddəsində və" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) 24-cü maddəsində "24.0", "24.0.1", "24.0.1-1 - 24.0.1-2", "24.0.2", "24.0.2-1 - 24.0.2-2", "24.0.3 - 24.0.4", "24.0.4-1", "24.0.5", "24.0.5-1", "24.0.6", "24.0.6-1", "24.0.7", "24.0.7-1", "24.0.8 - 24.0.12" rəqəmləri müvafiq olaraq "24.1", "24.1.1", 24.1.1-1 - 24.1.1-2", "24.1.2", "24.1.2-1 - 24.1.2-2", "24.1.3 - 24.1.4", "24.1.4-1", "24.1.5", "24.1.5-1", "24.1.6", "24.1.6-1", "24.1.7", "24.1.7-1", "24.1.8 - 24.1.12" rəqəmləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 24.2-ci maddə əlavə olunsun:

"24.2. Bu Məcəllə ilə nəzərdə tutulmuş dövlət xidmətlərinin göstərilməsi ilə əlaqədar təqdim edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar vergi ödəyicisindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vergi ödəyicisinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vergi ödəyicisi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 705-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 705-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585; 2022, № 1, maddə 22; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "24.0.4-1-ci" sözləri "24.1.4-1-ci" sözləri ilə, "24.0.6-cı" sözləri "24.1.6-cı" sözləri ilə, "24.0.7-1-ci" sözləri "24.1.7-1-ci" sözləri ilə əvəz edilsin;

1.2. 1.4-cü bənddə "24.0.4-cü" sözləri "24.1.4-cü" sözləri ilə əvəz edilsin;

1.3. 1.10-cu bənddə "24.0.4-1-ci" sözləri "24.1.4-1-ci" sözləri ilə, "24.0.6-cı" sözləri "24.1.6-cı" sözləri ilə əvəz edilsin;

1.4. 1.31-ci bənddə "24.0.7-ci" sözləri "24.1.7-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 705-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901; 2020, № 6, maddə 669, № 7, maddə 829; 2021, № 7, maddə 711) 30.5-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"30.5. İnzibati orqan tərəfindən qanunla ərizəyə əlavə edilməli olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər bu Qanunun 32.4-cü maddəsinə uyğun olaraq kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88; 2001, № 11, maddələr 669, 676; 2002, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 12, maddə 1197; 2008, № 7, maddə 602, № 8, maddə 701; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 229, № 5, maddə 470; 2014, № 11, maddə 1336; 2015, № 5, maddə 497; 2016, № 1, maddə 37; 2017, № 1, maddə 29; 2018, № 12 (I kitab), maddə 2506; 2020, № 7, maddə 826; 2021, № 8, maddə 897) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddənin beşinci hissəsi altıncı hissə hesab edilsin və aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Bu maddədə nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. 8-ci maddənin birinci hissəsinin 1-ci bəndinə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Qanunun 5-ci maddəsinin beşinci hissəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 719-VIQD nömrəli Qanununun tətbiqi və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli 684 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 719-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli 684 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1234; 2013, № 11, maddə 1326) 2.1-ci bəndində "beşinci" sözü "altıncı" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 719-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686; 2020, № 5, maddə 523, № 6, maddə 676, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 7, maddə 717, № 8, maddə 894; 2022, № 8, maddə 833) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 36.4-cü və 41.4-cü maddələr əlavə edilsin:

"36.4. Bu Məcəllənin 36.1-ci maddəsində nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.";

"41.4. Müvəqqəti olma müddətinin uzadılması üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

2. 41-ci maddənin "Qeyd" hissəsinə "qaytarılır" sözündən sonra "(bu Məcəllənin 41.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 46.8-ci maddə əlavə edilsin:

"46.8. Müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

4. 46-cı maddənin "Qeyd" hissəsinə "qaytarılır" sözündən sonra "(bu Məcəllənin 46.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

5. 50.1.3-cü maddəyə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Məcəllənin 46.8-ci maddəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

6. Aşağıdakı məzmunda 53.4-cü maddə əlavə edilsin:

"53.4. Daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

7. 53-cü maddənin "Qeyd" hissəsinə "qaytarılır" sözündən sonra "(bu Məcəllənin 53.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

8. 55.0.3-cü maddəyə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Məcəllənin 53.4-cü maddəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

9. 65-ci maddədə "65.0", "65.0.1 - 65.0.4", "65.0.6", "65.0.6.1 - 65.0.6.2" və "65.0.7" rəqəmləri müvafiq olaraq "65.1", "65.1.1 - 65.1.4", "65.1.6", "65.1.6.1 - 65.1.6.2" və "65.1.7" rəqəmləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 65.2-ci maddə əlavə olunsun:

"65.2. İş icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciət edəndən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.".

10. 66.0.1-ci maddəyə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Məcəllənin 65.2-ci maddəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

11. 67.4-cü maddədə "65.0.2-ci, 65.0.3-cü, 65.0.4-cü və 65.0.7-ci" sözləri "65.1.2-ci, 65.1.3-cü, 65.1.4-cü və 65.1.7-ci" sözləri ilə əvəz edilsin.

12. 69.3-cü maddədə "65.0.1-ci, 65.0.3-cü, 65.0.4-cü və 65.0.7-ci" sözləri "65.1.1-ci, 65.1.3-cü, 65.1.4-cü və 65.1.7-ci" sözləri ilə əvəz edilsin.

13. 70.3-cü maddədə "65.0.1-ci və 65.0.3-cü" sözləri "65.1.1-ci və 65.1.3-cü" sözləri ilə, "65.0.1-ci və 65.0.6.1-ci" sözləri isə "65.1.1-ci və 65.1.6.1-ci" sözləri ilə əvəz edilsin.

14. 83.1-ci maddəyə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Həmin sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənəd ərizəçidən tələb edilmir. Belə sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 732-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 732-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803; 2014, № 9, maddə 1050, № 11, maddələr 1382, 1413, № 12, maddə 1588; 2015, № 10, maddə 1121; 2016, № 6, maddələr 1020, 1044, № 11, maddə 1827; 2018, № 7 (I kitab), maddə 1476; 2019, № 7, maddə 1240; 2020, № 6, maddə 703; 2021, № 1, maddə 36) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.3-cü bənddə "65.0.1-ci, 65.0.7-ci" sözləri "65.1.1-ci, 65.1.7-ci" sözləri ilə əvəz edilsin;

1.2. 5.4-cü bənddə "65.0-cı" sözləri "65.1-ci" sözləri ilə, "65.0.1-ci və 65.0.7-ci" sözləri "65.1.1-ci və 65.1.7-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 732-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443; 2016, № 12, maddə 1985; 2017, № 6, maddə 1047; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 545; 2022, № 3, maddə 192) 12-ci maddəsinin dördüncü - səkkizinci hissələri müvafiq olaraq beşinci - doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar dini qurumdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi dini qurumun razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya dini qurum tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840; 2021, № 6 (I kitab), maddə 578; 2022, № 3, maddə 216) 2.2-ci bəndində "dördüncü və beşinci" sözləri "beşinci və altıncı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 485; 2004, № 7, maddə 505; 2009, № 5, maddə 296; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 645; 2013, № 12, maddə 1482; 2018, № 4, maddə 636; 2019, № 1, maddə 26, № 3, maddə 373, № 4, maddə 572) 9-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Səkkizinci - on dördüncü hissələr doqquzuncu - on beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

"Bu maddənin yeddinci hissəsində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. On üçüncü hissənin birinci cümləsində "birinci" sözü "ikinci" sözü ilə əvəz edilsin və həmin cümləyə "verilmədikdə" sözündən sonra "(bu maddənin səkkizinci hissəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 702-VIQD nömrəli Qanununun tətbiqi və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 702-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 499; 2002, № 1, maddə 14; 2003, № 10, maddə 571; 2006, № 9, maddə 743; 2009, № 4, maddə 226, № 12, maddə 984; 2012, № 7, maddə 680; 2014, № 6, maddə 651; 2019, № 3, maddə 440; 2020, № 2, maddə 92) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci və 2.3-cü bəndlərdə "səkkizinci, on ikinci və on üçüncü" sözləri "doqquzuncu, on üçüncü və on dördüncü " sözləri ilə əvəz edilsin;

1.2. 2.2-ci bənddə "on dördüncü" sözləri "on beşinci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 702-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828) aşağıdakı məzmunda 10-2.5-ci maddə əlavə edilsin:

"10-2.5. Bu Məcəllənin 10.2-10.4-cü maddələrində nəzərdə tutulmuş hallarda videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılmasına yol verilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

# Tütün məmulatlarının və alkoqollu içkilərin idxalı və istehsalı sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, tütün məmulatlarının və alkoqollu içkilərin yerli istehsalının rəqabət qabiliyyətinin artırılması və ixracının genişləndirilməsi, qanunla müəyyən edilmiş dövlət ödənişlərinin icra edilməsi üçün fiskal nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti aşağıdakı məsələlərə dair təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

1.1. tütün məmulatlarının və alkoqollu içkilərin idxalı və istehsalı ilə əlaqədar şəffaf iqtisadi fəaliyyətin təşkili məqsədilə tütün məmulatlarının istehsalının və idxalının həyata keçirilməsi fəaliyyətinə görə icazə sisteminin tətbiqi və alkoqollu içkilərin idxalı və istehsalı ilə bağlı icazə sisteminin təkmilləşdirilməsi;

1.2. tütün məmulatları üzrə aksiz vergisinin markaların (məcburi nişanlamanın) alınması zamanı əvvəlcədən ödənilməsi mexanizminin tətbiqi;

1.3. beynəlxalq təcrübə nəzərə alınmaqla, alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymət tələbinin müəyyən edilməsi;

1.4. qanunvericiliyin tələblərini pozmaqla tütün məmulatlarının və alkoqollu içkilərin idxalını və istehsalını həyata keçirən şəxslərə qarşı məsuliyyət tədbirlərinin sərtləşdirilməsi;

1.5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında ölkə daxilində tütün məmulatlarının istehsalında yerli xammaldan istifadə həcmlərinə dair tələblərin müəyyən edilməsi.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi altı ay müddətində tütün məmulatlarına və alkoqollu içkilərə tətbiq edilən aksiz dərəcələrinin beynəlxalq təcrübə, habelə Ümumdünya Səhiyyə Təşkilatının tələb və tövsiyələri nəzərə alınmaqla mərhələli olaraq artırılması istiqamətində aidiyyəti qurumlarla birlikdə razılaşdırılmış təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

## "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20; 2020, № 5, maddələr 511, 512, 521, № 7, maddə 842, № 12 (I kitab), maddə 1431; 2021, № 12, maddə 1315) 52-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu hissənin ikinci cümləsindən "(müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) özü həmin sənədlər barədə məlumatları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsində göstərilən qaydada əldə edə bilmədikdə)" sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

"10-1. Dövlət ekoloji ekspertizasının keçirilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

## "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanununun tətbiqi və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546; 2014, № 10, maddə 1192; 2017, № 7, maddə 1342; 2018, № 11, maddə 2279) 2.1-ci və 2.5-ci bəndlərində ", 10-cu (hər iki halda) və 12-ci hissələrində" sözləri "hissələrində, 10-cu hissəsinin birinci cümləsində və 12-ci hissəsində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685; 2022, № 5, maddə 444) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bəndə "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi," sözlərindən sonra "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi," sözləri əlavə edilsin.

2. 6.1.12-ci yarımbəndə "icraatın" sözündən sonra ", inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə dair işlər üzrə məhkəmə icraatının" sözləri əlavə edilsin.

3. 6.1.17-ci yarımbəndə "mübahisələrinə" sözündən sonra ", inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə" sözləri əlavə edilsin.

4. 13.6-cı bəndə "10-1.2-ci" sözlərindən sonra ", Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 9-1.2-ci" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

## Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12 (I kitab), maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699, № 8, maddə 897; 2022, № 8, maddə 830) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 29-cu maddəsinin ikinci - dördüncü hissələri üçüncü - beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu maddədə göstərilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər həqiqi hərbi xidmətə könüllü daxil olmaq barəsində arzusunu bildirən şəxsdən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi həqiqi hərbi xidmətə könüllü daxil olmaq barəsində arzusunu bildirən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

## "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 736-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 736-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 11, maddə 1117; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 845; 2015, № 5, maddə 541; 2017, № 3, maddə 366, № 12 (I kitab), maddə 2277; 2018, № 12 (I kitab), maddə 2563) 2-ci hissəsinin altıncı və on doqquzuncu abzaslarında "29-cu maddəsinin üçüncü" sözləri "29-cu maddəsinin dördüncü" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 736-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

## "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il dekabrın 17-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan, Rumıniya və Macarıstan Hökumətlərinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2023-cü il*

# Naxçıvanın sosial-iqtisadi inkişaf proqramı və strateji layihələr hazırlanır



İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə dövlət qurumlarının təmsilçiləri və iş adamlarından ibarət nümayəndə heyətinin Naxçıvana səfəri çərçivəsində "Naxçıvanda sahibkarlığın inkişafı: çağırışlar və perspektivlər" mövzusunda görüş keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar Naxçıvanın inkişafında yeni mərhələnin başlanmasına zəmin yaradıb. Bu baxımdan Naxçıvanda idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması, iqtisadi resurslardan səmərəli istifadə, özəl bölmənin inkişafı kimi istiqamətlər prioritetdir. Qeyd olunan məsələlərlə bağlı dövlət qurumlarının və özəl bölmənin nümayəndələrinin birgə iştirakı ilə müzakirələrin aparılması, çətinliklərin həlli yollarının tapılması, bu istiqamətdə fəaliyyət və təşəbbüslərin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Diqqətə çatdırılıb ki, sahibkarlığın genişləndirilməsi ilə bağlı qətiyyətli addımlar atılacaq, bu sahədə nöqsanların aradan qaldırılması məqsədilə səmərəli tədbirlər həyata keçiriləcək.

Görüşdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, qlobal çağırışlar fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda davamlı iqtisadi inkişaf, makroiqtisadi dayanıqlılıq təmin edilib, böyük zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub, iqtisadi potensial artıb. Ölkəmizdə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik təkmilləşdirilir, dövlət-biznes dialoqu genişlənir. Sahibkarların maliyyə resurslarına daha rahat və sistemli çıxışının təmin olunması, vergi, sosial və digər güzəştlərin tətbiqi, investisiyaların stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi və s. tədbirlər biznes fəaliyyətinin daha da genişlənməsinə münbit şərait yaradır. Məqsədyönlü dövlət proqramları çərçivəsində bölgələrimizin tarazlı inkişafının sürətləndirilməsi prioritetinə uyğun olaraq həyata keçirilən tədbirlər bütün regionlarımızı, o cümlədən Naxçıvanı da əhatə edir. Bu istiqamətdə dövlət başçısının tapşırığına uyğun olaraq, Naxçıvanın sosial-iqtisadi inkişaf proqramı və strateji layihələr hazırlanır. Bu layihələr çərçivəsində yeni iş yerləri yaradılacaq ki, bu da iqtisadi inkişaf zəncirinin tamamlanmasına xidmət edəcək.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, muxtar respublikanın iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış ediblər.

Görüşdə Naxçıvanda özəl sektorun qarşılaşdıqları məsələlər və qarşıda duran çağırışlarla bağlı müzakirələr aparılıb, sahibkarların təklifləri dinlənilib.

Tədbirdən sonra Naxçıvan Biznes Mərkəzinin sərgi salonuna baxış keçirilib, bir neçə istehsal müəssisəsinin fəaliyyəti ilə tanışlıq olub.

# AHİK-in 30 illik yubileyi qeyd olunub

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) yaradılmasının 30-cu ildönümü münasibətilə AHİK-in rəhbərliyi və kollektivi, həmçinin üzv təşkilatların rəhbərləri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn həmkarlar ittifaqlarının kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Daha sonra AHİK-in yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib.

Tədbirdə ölkəmizin dövlət və hökumət rəsmiləri, həmçinin Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının, Pan Avropa Regional Şurasının, Beynəlxalq Əmək Təşkilatının, Avrasiya Qida, Meşə və Turizm İşçiləri Federasiyasının rəhbərliyi, eləcə də Türkiyə, Gürcüstan, Litva, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Bolqarıstan, Malavi, İordaniya, İsrail, Albaniya, Moldova, Norveç, Rusiya, Serbiya və Zambiyanın həmkarlar ittifaqları sədrləri və nümayəndələri iştirak ediblər.



Çıxışlardan əvvəl AHİK-in 30 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub *(Məktub qəzetin bugünkü nömrəsində dərc edilib)*.

Ardınca Azərbaycan dövlətinin qurucusu və banisi Ulu Öndər Heydər Əliyev başda olmaqla Vətənimizin azadlığı və müdafiəsi naminə şəhid olmuş oğul və qızlarımızın, həyatını itirmiş həmkarlar ittifaqı liderlərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək tədbir iştirakçılarını və Azərbaycan həmkarlar ittifaqlarının bütün üzvlərini yubiley münasibətilə təbrik edib, həmkarlar ittifaqlarının tarixindən, keçdiyi inkişaf yolundan, AHİK-in yaranmasından, ölkəmizin ictimai həyatında rolundan və əhəmiyyətindən danışıb.

Onun sözlərinə görə, AHİK bu gün öz sıralarında 1,5 milyonadək həmkarlar ittifaqı üzvünü birləşdirir. Quruma 27 həmkarlar ittifaqı mərkəzi, o cümlədən 501 şəhər, rayon həmkarlar ittifaqı təşkilatı, 60 birləşmiş həmkarlar ittifaqı komitəsi, 14 min 202 ilk həmkarlar ittifaqı təşkilatı daxildir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Nazirlər Kabineti və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Baş Kollektiv Sazişin bağlanması sosial tərəfdaşlığın müsbət nümunəsidir. Həmin sənədin əsasında sahə həmkarlar ittifaqı Respublika Komitələri tarif sazişi, ilk həmkarlar ittifaqı təşkilatları isə kollektiv müqavilələr imzalayırlar. Hazırda 11 min 476 kollektiv müqavilə, 122 tarif sazişi fəaliyyət göstərməkdədir.

"AHİK yarandığı gündən işçilərin sosial təminatlarına dair qanun və proqramların, normativ hüquqi sənədlərin işlənib hazırlanmasında fəal iştirak edir. İndiyədək qanunverici və icra orqanlarının hazırladığı 544-dən çox qanun layihəsinə öz təkliflərimizi vermişik. Onların əksəriyyəti nəzərə alınıb", - deyə AHİK sədri diqqətə çatdırıb.

Bildirib ki, AHİK bu gün dünya ölkələrinin 70-dən çox həmkarlar ittifaqları mərkəzi ilə əməkdaşlıq edir. Azərbaycan həmkarlar ittifaqlarının beynəlxalq həmkarlar ittifaqı hərəkatında oynadığı rol nəzərə alınaraq AHİK-in rəhbəri son üç seçkidə BHİK-in və Pan Avropa Regional Şurasının vitse-prezidenti seçilib. Səttar Möhbalıyev bu yaxınlarda AHİK-in nümayəndəsinin Pan Avropa Regional Şurası Qadınlar komitəsinin prezidenti seçildiyini də diqqətə çatdırıb.

AHİK sədrinin çıxışından sonra qurumun 30 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının təmsilçisi, Pan Avropa Regional Şurasının icraçı katibi Anton Leppik, Beynəlxalq Əmək Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə nümayəndəsi Sergiyus Glovaskas, Pan Avropa Regional Şurasının prezidenti, Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbəri İrakli Petriaşvili çıxışlarında AHİK-in fəaliyyətindən, dünya həmkarlar ittifaqlarının həyatında fəal rolundan, təcrübəsinin zənginliyindən və əhəmiyyətindən bəhs ediblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov və digər çıxış edənlər AHİK-in ölkəmizin həyatında əvəzsiz xidmətlərindən, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına, aztəminatlı ailələrə diqqət və qayğısından, əmək hüquqlarının qorunması istiqamətində gördüyü işlərdən söz açıblar.

# Heydər Əliyev Mərkəzinin binası Türkiyənin Dövlət bayrağı rəngində işıqlandırılıb

Fevralın 6-da Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq, bu gündən etibarən Heydər Əliyev Mərkəzinin binası Türkiyə Respublikasının Dövlət bayrağının rəngində işıqlandırılıb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkiyə xalqları arasındakı dostluğu, qardaşlığı və birliyi nümayiş etdirən videoproyeksiya bir neçə gün davam edəcək.

Qeyd edək ki, fevralın 6-da yerli vaxtla saat 04:17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, saat 13:24-də isə Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ baş verib. Fevralın 7-də Adıyaman şəhərinin Gölbaşı rayonunda 5,3 bal gücündə daha bir zəlzələ olub.

Dərinliyi 7 kilometr olan zəlzələ 10 vilayətdə ciddi dağıntılara səbəb olub. Xeyli sayda insan həlak olub və yaralanıb.

Xatırladaq ki, zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 7-də isə ilkin olaraq mobil səhra hospitalı və 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyət qardaş Türkiyəyə yola düşüb. Sonra isə növbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, yataq dəstləri, qızdırıcılar, habelə mobil səhra hospitalı üçün üç ədəd konteyner yola salınıb.

# XİN Türkiyədə zəlzələ nəticəsində Azərbaycan tərəfindən görülən tədbirlər barədə məlumat yayıb

Fevralın 6-da Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, zəlzələ bölgəsində həyata keçirilən axtarış xilasetmə əməliyyatlarına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Fövqəladə Hallar Nazirliyinin (FHN) 420 nəfərlik xilasedici heyəti müvafiq avadanlıqlar və axtarış itləri ilə bərabər fevralın 6-da Türkiyəyə yola salınıb və artıq fəaliyyətə başlayıb.

Bundan əlavə, zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə FHN-in zəruri tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı və 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyəti artıq Türkiyəyə yola düşüb.

Prezident İlham Əliyevin göstərişinə əsasən, 10 nəfər hərbi həkim, 8 nəfər tibb bacısı olmaqla Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı da bu gün qardaş ölkədədir.

Zəlzələdən zərər çəkmiş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilməsi və təxliyəsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyində, İstanbul və Qars şəhərlərindəki baş konsulluqlarında Operativ Qərargahlar çalışmaqdadır.

24 saat fəaliyyət göstərən və əməkdaşlar tərəfindən cavablandırılan qaynar xətlərə daxil olmuş vətəndaş müraciətlərinə və əldə edilmiş məlumatlara əsasən, Türkiyənin zəlzələ nəticəsində dağıntılara məruz qalmış vilayətlərində (Kahramanmaraş, Hatay, Adana, Malatya, Qaziantep, Adıyaman, Şanlıurfa, Kilis, Osmaniye, Diyarbakır, Elazığ və Mərsin) məskunlaşan və ya müvəqqəti burada olan Azərbaycan vətəndaşları siyahıya alınır. Azərbaycana təxliyə edilmək arzusunda olan vətəndaşların bu məqsədlə ayrılmış avtobuslara yerləşdirilməsi təmin edilir. Əlverişsiz hava şəraiti ilə bağlı məhdudiyyətlərin təxliyə prosesinə maneə yaratmaması üçün Türkiyə dövlət qurumları ilə bu məhdudiyyətlərin aradan qaldırılması istiqamətində danışıqlar aparılır.

Zəlzələ zamanı sənədləri itmiş və ya yararsız vəziyyətə düşmüş vətəndaşlarımız üçün sənədləşdirmə işləri Türkiyədəki səfirlik və baş konsulluqlarımız tərəfindən sadələşdirilmiş qaydada həyata keçirilir.

Bu gün saat 15:00-dan başlayaraq Türkiyənin Kahramanmaraş, Malatya, Qaziantep və Adana vilayətlərinin avtovağzallarından təxliyə avtobusları Azərbaycana yola salınacaq. İlk mərhələdə, Türkiyədə təhsil alan tələbələrin və təcili köməyə ehtiyacı olan şəxslərin təxliyəsi həyata keçiriləcək.

Hazırda Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyinin və səfirlik nəzdindəki hərbi attaşeliyin bir qrup əməkdaşı quru yolu ilə təxliyə prosesinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə zəlzələdən zərər görmüş bölgələrə ezam olunub.

Təxliyə edilmək arzusunda olan və yuxarıda qeyd edilən 10 vilayətdən birində məskunlaşmış Azərbaycan vətəndaşları +90 536 459 40 35, +90 536 471 55 68, +90 501 031 80 80, +90 552 627 92 94 və +90 532 254 19 33 nömrələri ilə əlaqə saxlaya bilərlər.

# *Süleyman SOYLU:* "Qardaş Azərbaycanın dəstəyi böyük rəğbətlə qarşılanır"

"Bütün fəlakətlər, o cümlədən meşə yanğınlarında qardaş Azərbaycanın dəstəyi xalqımız tərəfindən böyük rəğbətlə qarşılandı. Zəlzələ ilə bağlı köməyə də ilk gələn ölkə Azərbaycan oldu. Hazırda çox əhəmiyyətli bir yerdə axtarış-xilasetmə işləri davam etdirilir".

AZƏRTAC TRT telekanalına istinadla xəbər verir ki, bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu söyləyib. Nazir Türkiyədə baş vermiş hər bir təbii fəlakətdən sonra qardaş Azərbaycanın Türkiyəyə yardım göstərdiyini qeyd edib.



# Zəlzələdə sənədləri itənlərin sənədləşdirmə işləri sadələşdirilmiş qaydada aparılır

Zəlzələ zamanı sənədləri itmiş və ya yararsız vəziyyətə düşmüş vətəndaşlarımız üçün sənədləşdirmə işləri Türkiyədəki səfirlik və baş konsulluqlarımız tərəfindən sadələşdirilmiş qaydada həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Türkiyədə zəlzələ nəticəsində Azərbaycan tərəfindən görülən tədbirlər barədə yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, 24 saat fəaliyyət göstərən və əməkdaşlar tərəfindən cavablandırılan qaynar xətlərə daxil olmuş vətəndaş müraciətlərinə və əldə edilmiş məlumatlara əsasən, Türkiyənin zəlzələ nəticəsində dağıntılara məruz qalmış vilayətlərində (Kahramanmaraş, Hatay, Adana, Malatya, Qaziantep, Adıyaman, Şanlıurfa, Kilis, Osmaniye, Diyarbakır, Elazığ və Mərsin) məskunlaşan və ya müvəqqəti burada olan Azərbaycan vətəndaşları siyahıya alınır.

Azərbaycana təxliyə edilmək arzusunda olan vətəndaşların bu məqsədlə ayrılmış avtobuslara yerləşdirilməsi təmin edilir. Əlverişsiz hava şəraiti ilə bağlı məhdudiyyətlərin təxliyə prosesinə maneə yaratmaması üçün Türkiyə dövlət qurumları ilə bu məhdudiyyətlərin aradan qaldırılması istiqamətində danışıqlar aparılır.

# AZAL Türkiyədəki zəlzələ ilə əlaqədar biletlərin cərimısiz qaytarılmasına başlayıb

Zəlzələ nəticəsində aviaşirkətin xidmətlərindən yararlana bilməyən AZAL-ın Türkiyəyə və geri gələn sərnişinlərinə aviabiletlərin dəyərinin cərimə tətbiq edilmədən tam qaytarılmasına və ya ödənişsiz yenidən bronlaşdırılmasına icazə verilir.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Türkiyənin Kahramanmaraş, Qaziantep, Şanlıurfa, Malatya, Diyarbəkir, Mardin, Batman, Ərzurum, Ərzincan, Sivas, Şırnak, Siirt, Van, Muş, Bingöl, Ağrı, İğdır, Adana, Qars, Rizə, Trabzon, Giresun, Ordu, Samsun, Tokat, Merzifon, Kayseri, Adıyaman, Hatay, Elazığ, Nevşehir, Kastamonu və Sinop şəhərlərində baş vermiş zəlzələ səbəbindən Ankara, İstanbul, İzmir və Antalyanın beynəlxalq hava limanlarına reys yerinə yetirən AZAL və "Buta Airways"in fevralın 6-dək əldə edilmiş uçuş tarixi fevralın 6-dan 21-dək olan aviabiletlərinin, 31 mart 2023-cü il daxil olmaqla, "involuntary" proseduru çərçivəsində geri qaytarılması və istənilən digər tarixlərə yenidən bron edilməsi təmin olunur.

# Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin fəalları Türkiyənin Moskvadakı səfirliyində olublar

Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) fəalları Türkiyənin Moskvadakı səfirliyində olublar.

AZƏRTAC xəbər verir ki, RAGB-nin sədri Ceyhun Hüseynov və təşkilatın fəalları Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin qurbanlarının xatirəsini yad etmək üçün Türkiyənin Moskvadakı səfirliyini ziyarət ediblər.

Gənclər zəlzələ qurbanlarının xatirəsini ehtiramla yad edib, səfirliyin binası önünə əklil və güllər qoyublar.



# Dənizçilərimiz Türkiyəyə dəstək nümayiş etdiriblər

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) xarici sularda istismar olunan gəmilərinin heyət üzvləri Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar dəstək xarakterli aksiya təşkil ediblər.




ASCO-dan AZƏRTAC-a bildirilib ki, dənizçilər dağıdıcı zəlzələyə diqqəti artırmaq məqsədilə öz təşəbbüsləri ilə çalışdıqları gəmilərin göyərtələrində "Pray For Türkiye" posterləri açıblar. Bununla gəmiçilər həm də təbii fəlakətdən təəssüfləndiklərini, hər zaman olduğu kimi, bu ağır günlərdə də Türkiyə xalqı ilə həmrəy olduqlarını ifadə ediblər.

Dəstək aksiyaları zamanı dənizçilər zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini anıb, onların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veriblər.

Qeyd edək ki, fevralın 6-da Türkiyədə xeyli sayda insanın ölümü və yaralanması ilə nəticələnən dəhşətli zəlzələ olub.

# RİİB könüllüləri Türkiyədəki zəlzələdən zərərçəkənlərə yardım kampaniyasına dəstək göstərəcəklər

Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) qardaş ölkəyə dəstək məqsədilə humanitar yardım kampaniyasına start verir.

AZƏRTAC xəbər verir ki, Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi ilə bağlı Azərbaycan vətəndaşlarına çağırışına qoşulan RİİB-in könüllüləri fevralın 8-14-də saat 11:00-dan 20:00-dək Bakı İdman Sarayında (Neftçilər prospekti, 26a) Türkiyənin təbii fəlakətdən zərər çəkmiş vilayətlərində hazırda ən çox ehtiyac duyulan ləvazimatların toplanmasını həyata keçirəcəklər. Humanitar yardım göstərmək istəyən şəxslər pul vəsaiti istisna olmaqla, yalnız ilkin tələb olunan ləvazimatları qeyd edilən ünvana təhvil verə bilərlər. RİİB könüllüləri tərəfindən əhalidən toplanan yardım daha sonra Türkiyədə fəlakət zonasına göndəriləcək.

Yardım kampaniyası ilə əlaqədar yaranan suallarla bağlı İctimai Birliyin "150" nömrəli qaynar xətti ilə əlaqə saxlamaq olar. Qeyd edək ki, faciədən zərər çəkmiş şəxslər üçün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım da göndərilir.

# Zərərçəkənlərə yardım toplanılır









Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərə yardım məqsədilə Azərbaycanda fəaliyyət göstərən QHT-lər "Qardaş köməyı" adlı platforma yaradıblar.




Türkiyənin ölkəmizdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, qardaş ölkədə zəlzələdən zərərçəkənlərə bu platforma vasitəsilə kömək etmək istəyən şəxslər müxtəlif ünvanlarda yardımlarını çatdıra bilərlər.

Eyni zamanda Türkiyənin Azərbaycandakı səfirliyi və Naxçıvandakı baş konsulluğu yardım üçün Azərbaycan vətəndaşlarına müraciət edib. Müraciətdə bildirilib ki, zəlzələdən əziyyət çəkən vətəndaşlara müxtəlif ləvazimatlar lazımdır.

Yardımlar Bakıda "Doğtaş" mebel mağazasında toplanır.

Bundan başqa, əşyalar şəxsən və ya karqo yolu ilə Naxçıvandakı baş konsulluğa çatdırıla bilər. Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 17-dir.

# Türkiyənin Bakıdakı səfirliyinin qarşısında zəlzələ qurbanlarının xatirəsi anılır





Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi Bakıda da yad edilir.

AZƏRTAC xəbər verir ki, zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə insanlar Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzürlər.



Xatırladaq ki, qardaş ölkədə baş vermiş təbii fəlakətlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün Türkiyədə bir həftə matəm elan edib. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib.

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi yad edilib

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirəsini ehtiramla anıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edərək Milli Qəhrəmanın göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıblar. Vətən yolunda canından keçməklə gənclərə örnək olacaq bir addım atan qəhrəmanımızın döyüş ruhunun, vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğu diqqətə çatdırılıb. Mübariz İbrahimovun göstərdiyi rəşadətin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyi xüsusi vurğulanıb.





Mərasimdə Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri birdəqiqəlik sükutla yad edilib, məzarları üzərinə güllər düzülüb.

Həmin gün Milli Qəhrəmanın doğulub boya-başa çatdığı Biləsuvar rayonundakı evi də bir qrup hərbi qulluqçu tərəfindən ziyarət olunub.



AZƏRBAYCAN
Yanındayıq, qardaş!
Türkiyədə yeddigünlük milli matəm elan edilib

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Azərmətbuatyayımı" ASC*** | *(012) 441-19-91, (050) 322-33-17* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Ombudsman Aparatının nümayəndələri "N" saylı hərbi hissədə olublar





Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2023-cü il üçün birgə tədbirlər planına əsasən, ombudsman Səbinə Əliyeva və aparatın nümayəndələri "N" hərbi hissəsini ziyarət ediblər.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin əziz xatirəsinə ucaldılan abidə kompleksi ziyarət edilərək önünə gül dəstələri düzülüb.



Qonaqlara hərbi hissənin yaranma tarixi və fəaliyyəti haqqında məlumat verilib.

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirə ilə çıxış edən S.Əliyeva xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya hədiyyələr təqdim edib.

Sonra nümayəndə heyəti hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, yataqxana, əsgər yeməkxanası və digər obyektlərə baxış keçirib.

S.Əliyeva hərbi hissənin "Xatirə kitabı"na ürək sözlərini yazıb.

Səfər çərçivəsində Ombudsman Aparatının nümayəndələri hərbi hospitalı ziyarət edərək burada yaradılan şəraitlə tanış olub, hərbi tibb müəssisəsində müalicə olunan hərbi qulluqçuların qayğıları ilə maraqlanıblar.


## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyası 2023-2024-cü tədris ilində "Hava gəmilərinə texniki xidmət göstərən personalın hazırlığı üzrə Texnik-mexanik (B-1) və Texnik-avionik (B-2) kursları" na qəbul elan edir

**Kursların müddəti 24 aydır.**
**Tədris ödənişlidir.**
**Təhsil haqqı 7500 manat təşkil edir.**
**Tədris Azərbaycan, rus və ingilis dillərində aparılır.**

**Tələblər:**
Kurslara 18 yaşından 32 yaşınadək tam orta, orta ixtisas və ya ali təhsilli, texnika ilə işləmək həvəsi və bacarığı olan, ingilis dilini yaxşı səviyyədə bilən, sağlamlıq vəziyyətinə görə uyğun gənclər qəbul edilir.

**Kurslara qəbul** iddiaçılarla keçirilən imtahan və müsahibənin nəticələri nəzərə alınmaqla mütəxəssislərdən ibarət komissiyanın rəyi əsasında aparılır.

Kurslara qəbulla bağlı həm fiziki, həm də hüquqi şəxslər müraciət edə bilərlər.

**Qəbul yerlərinin sayı** məhduddur və hər iki peşə kateqoriyası üzrə (B-1 və B-2) birlikdə cəmi 50 yer təşkil edir.

**Təhsil haqqı ödənişləri** tam və hissə-hissə aparıla bilər.

Dinləyicilərin bir qisminin təhsili onlarla bağlanmış müqavilələr əsasında sifarişçilər tərəfindən maliyyələşdirilə bilər.

Müvəffəqiyyət göstəriciləri yüksək olan dinləyicilərə təhsil haqqının ödənişində güzəştlər nəzərdə tutulur.

**Kursları müvəffəqiyyətlə bitirmiş** və modul imtahanlarından uğurla keçmiş şəxslərə Azərbaycanın Aviasiya Qaydaları (AAQ-147) əsasında fəaliyyət göstərən "Texniki xidmət üzrə Təlim təşkilatı"nın Tanınma Sertifikatı verilir.

**"Tanınma Sertifikatı"** almış şəxslər Azərbaycan Hava Yolları QSC-də, "Silk Way West Aviaşirkəti" MMC-nin "Silk Way Technics" filialında, "ASG Helicopter Services" MMC-də və digər aviasiya müəssisələrində müvafiq peşə kateqoriyaları üzrə işlə təmin olunacaqlar.

**Həmin şəxslər** iş təcrübəsindən və ixtisasından asılı olaraq "Hava gəmilərinə texniki xidmət göstərən personalın şəhadətnaməsi"ni əldə edə biləcəklər.

**Sənədlərin qəbulu** 06-28 fevral 2023-cü il tarixlərdə aparılacaqdır.

**Ünvan:** AZ-1045, Bakı şəhəri, Mərdəkan prospekti, 30, Milli Aviasiya Akademiyası, Sənəd qəbulu komissiyası.

**Qeyd:** Əlavə məlumatlar və tələb olunan sənədlərin siyahısı ilə Milli Aviasiya Akademiyasının rəsmi elektron səhifəsində (**www.naa.edu.az**) tanış ola bilərsiniz.

**Məsul katib:** Firdovsi Mahmudlu
Telefon: (012)525-98-08 əlavə: 29-85. Mob: 050-787-62-62
**Sənədlərin qəbulu üzrə məsul şəxslər:** Fatimə Ramazanova, Fərid Məmmədov
Telefon: (012)525-98-08 əlavə: 37-69
**Mütəxəssis:** Nailə Bayramzadə
Telefon: 437-47-97 əlavə: 41-82; (012)525-98-08 əlavə: 37-69.

***Rektorluq***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan struktur idarələr üçün elektrik mallarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili - 1177.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə dəftərxana ləvazimatlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2023-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili - 1053.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti "Şəki" gəmisi üçün mühərrik və ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 13 fevral 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu - (012) 404-37-00, daxili - 1164**

***Tender komissiyası***



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5042
Sifariş 339

Qiyməti 40 qəpik